


## “Azərbaycan dili Azərbaycan xalqının milli sərvətidir"

3

# Azərbaycan və Qırğızıstan münasibətləri möhkəm təməl üzərində qurulur

2



*Azərbaycan və qırğız xalqları tarix, dil, din və mədəni dəyərlər baxımından bir-birinə çox sıx tellərlə bağlıdır. Bu iki xalq arasında münasibətlər tarixi dövrü əhatə edir. Tariximizə nəzər salsaq görərik ki, hər iki xalq çar imperiyası və Sovetlər ittifaqı dönəmində vahid mərkəzdən idarə olunublar. Həmin zamanda da onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşıb.*

Səs

№ 069 (6510) 21 aprel 2022-ci il. Qiymәti 60 qәpik

4



# Sonsuz dəhşət içində, yaxud dəhşətli sonluq astanasında

## Şuşada keçiriləcək qurultaya CƏMİYYƏTİN BAXIŞI NECƏDİR? - SORĞU

7

*Dünya Azərbaycanlılarının Qurultayının çağırılması ilə bağlı ilk təşəbbüs 1992-ci ildə olub. Bildiyimiz kimi, Dünya Azərbaycanlılarının V Qurultayı bu il Şuşada keçiriləcək.*




## Qida təhlükəsizliyi: Qlobal ərzaq böhranında Azərbaycanın qorunma potensialı

15



*Məlum olduğu kimi, uzun onillərdir ki, qlobal transkorporasiyalar dünyada təbii məhsulların sıradan çıxarılmasına, GMO məhsulların tətbiqinə çalışır, var gücləri ilə bu işi bütün ölkələrdə həyata keçirməyə cəhd edirlər. Lakin bir çox ölkələr öz ərzaq təhlükəsizliyini, qida təhlükəsizliyini qorumaqda israrlıdır və...*

## Rusiya-Ukrayna qarşıdurması - bu xəmir hələ çoxmu su aparacaq?



## 15 yaşlı gənc anasını niyə öldürüb?- səbəbi açıqlandı



Aprelin 20-si saat 12:00 radələrində paytaxtın Nizami rayonu ərazisində 1985-ci il təvəllüdlü Sevinc Məhərrəmovanın aldığı xəsarətlərdən ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur...



## Azərbaycanda dərmanları kimlər bahalaşdırır?

4

“Ölkədə dərman preparatlarının qiymətinin həddindən artıq baha olması mövcud bazarlarda yaxşı olmayan ən mənfi tərəflərdən biridir.



## 15 yaşlı futbolçu “Fənərbaxça”nın tarixinə düşdü

16

*“Fənərbaxça"nın Ukraynanın "Şaxtyor" klubu ilə xeyriyyə matçı (1:0) komandanın futbolçusu İsak Vural üçün əlamətdar olub...*

# Azərbaycan və Qırğızıstan münasibətləri möhkəm təməl üzərində qurulur

## *İlham Əliyev: "Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir"*



## Rəsmi sənədlər

Prezident İlham Əliyev Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb.

**_Azərbaycan və qırğız xalqları tarix, dil, din və mədəni dəyərlər baxımından bir-birinə çox sıx tellərlə bağlıdır. Bu iki xalq arasında münasibətlər tarixi dövrü əhatə edir. Tarixə nəzər salsaq görərik ki, hər iki xalq çar imperiyası və Sovetlər ittifaqı dönəmində vahid mərkəzdən idarə olunublar. Həmin zamanda da onlar arasında iqtisadi və mədəni əlaqələr formalaşıb. SSRİ dağıldıqdan, postsovet məkanında müstəqil dövlətlər yarandıqdan sonra bu münasibətlər daha da yüksələn xətlə inkişaf etməyə başlayıb._**



Müstəqil siyasət yürüdən Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlər 19 yanvar 1993-cü ildə qurulub. Lakin bu əlaqələr ilk vaxtlar özünün intensivliyi ilə seçilməyib. İkitərəfli münasibətlərin genişlənməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 1993-cü ilin dekabrında Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası zamanı Ulu Öndər Heydər Əliyevlə Qırğızıstan Prezidenti Əsgər Akayevin ikitərəfli görüşü keçirilib. Görüş zamanı iki ölkə arasında münasibətləri möhkəmlətmək üçün ənənələrin, mədəniyyətin, dinin ümumiliyi, dil yaxınlığı kimi möhkəm bünövrənin olduğu vurğulanıb.

Ulu Öndər Heydər Əliyev 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının Üçüncü Sammitində iştirak etmək üçün Qırğızıstana səfər edib və Qırğızıstan Prezidenti Əsgər Akayevlə görüşüb. 1997-ci il aprelin 23-də Qırğızıstan prezidenti Əsgər Akayev Ulu Öndər Heydər Əliyevin dəvəti ilə Azərbaycana ilk rəsmi səfərini edib. 1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilən TRACECA proqramı çərçivəsində Tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransın işində Qırğızıstan Prezidenti Əsgər Akayev də iştirak edib. Konfransda "Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş" (Əsas Saziş) və onun Texniki Əlavələri imzalanıb. Beləliklə, görüşlər, səfərlər çərçivəsində imzalanan sənədlər dövlətlərarası münasibətlərini inkişafına daha da təkan olmuşdur. Ulu Öndərin siyasi kursunun davamçısı Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlərin daha da dərinləşməsinə töhfələr verir. Qarşılıqlı səfərlər, imzalanan sənədlər bu münasibətlərin daha da dərinləşməsinə səbəb olub. Ölkələrimiz BMT, ATƏT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, MDB və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli formatda sıx qarşılıqlı fəaliyyət göstərir. Bu münasibətlərin davamlığı Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovun ölkəmizə rəsmi səfərinində bir daha özünü göstərmiş oldu. Bu səfər Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında Dostluq və Əməkdaşlıq Haqqında Müqavilənin 25 illiyi və Qırğızıstan Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər qurulmasının 29-cu ildönümündə baş tutub.

### "STRATEJİ TƏRƏFDAŞLIQ HƏM BÖYÜK ÜSTÜNLÜKLƏR, HƏM DƏ BÖYÜK MƏSULİYYƏT DEMƏKDİR"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarov ilə geniş tərkibdə görüş zamanı "Azərbaycan-Qırğızıstan münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə çatır. Bu, çox əlamətdar hadisədir, çünki qarşılıqlı fəaliyyətdə olduğumuz 29 il ərzində münasibətlərimiz bu səviyyədə olmayıb" - deyə bildirib: "Strateji tərəfdaşlıq həm böyük üstünlüklər, həm də böyük məsuliyyət deməkdir. Əminəm ki, gələcəkdə də həmişə, beynəlxalq qurumlarda da bir-birimizi dəstəkləyəcək, ikitərəfli planda fəal işləyəcəyik". Qırğızıstan Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyətin geniş spektri nəzərdən keçirilib. Səfər çərçivəsində investisiya layihələrinə dair bir çox məsələlər müzakirə edilib. "Biz Qırğızıstanda və Azərbaycanda həyata keçirilmiş layihələr və onları qarşılıqlı faydalı şəkildə necə əlaqələndirməyin mümkün olması barədə fikir mübadiləsi aparmışıq", - deyən Cənab Prezident bildirib ki, kənd təsərrüfatında əməkdaşlığın inkişafı ilə bağlı məsələləri də müzakirə etmişik: "Burada da böyük perspektivlər var. Yəni, məsələlərin əhatə dairəsi genişdir".

Dövlətlərarası diplomatik münasibətlərin qurulmasından ötən müddətdə çox işlər görülmüş olsa da, hələ görülməli işlər də var. "Əminəm ki, həm beynəlxalq qurumlarda əməkdaşlıq çərçivəsində, həm də ikitərəfli formatda yeni nailiyyətlər, yeni nəticələr olacaq" - deyə Prezident bildirib. Qarşılıqlı iqtisadi fəaliyyət, nəqliyyat, ölkələr arasında əmtəə dövriyyəsinin artırılması və s. bu əlaqələrin inkişafında rol oynayacaqdır. Azərbaycan və Qırğız respublikası arasında münasibətlərin perspektivlərinə toxunan dövlət başçısı "Əminəm ki, Sizin səfəriniz bizim münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcək, çoxlu sənədlər imzalanacaq", - deyə bildirib: "Əlbəttə, hesab edirəm ki, həmin sənədlərdən ən əsası Strateji Tərəfdaşlıq haqqında Bəyannamədir. Bu, bizim münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdıracaq. Biz buna görə çox şadıq. Münasibətlərimizin möhkəm təməli var. Bu, xalqlarımızın qardaşlıq əlaqələridir. Bu gün biz dövlətlərarası münasibətləri belə bir möhkəm təməl üzərində, bu prinsiplər əsasında qururuq".

### DÖVLƏTLƏRARASI ŞURA ÖLKƏLƏR ARASINDA ƏMƏKDAŞLIĞIN DAHA DA GENİŞLƏNMƏSİNƏ VƏ MÖHKƏMLƏNMƏSİNƏ TÖHFƏ VERƏCƏK

Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması əhəmiyyəti ilə seçilir. "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə", "Azərbaycan Respublikası və Qırğız Respublikasının Dövlətlərarası Şurasının yaradılması haqqında Memorandum" dövlət başçıları tərəfindən imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında dövlətlərarası on sənədin imzalandığını qeyd edib. Mən onların arasında ikisini - Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni və Dövlətlərarası Şuranın yaradılması haqqında Memorandumu xüsusi vurğulamaq istərdim: "Hər iki sənəd bizim münasibətlərin xarakterini və formasını əsasən qabaqcadan müəyyən edəcək. Strateji tərəfdaşlıq qarşılıqlı fəaliyyətin yüksək səviyyəsidir və bizi məhz strateji xarakterli əməkdaşlığa kökləyir. Biz Dövlətlərarası Şura çərçivəsində həm ikitərəfli gündəliyə aid məsələləri, həm də regional və beynəlxalq problemləri daha effektli və fəal surətdə müntəzəm müzakirə edəcəyik".

Artıq qarşılıqlı münasibətlərin keyfiyyətcə yeni səviyyəyə çatdırılması şərait var. Yaradılan dövlətlərarası şura ölkələr arasında əməkdaşlığın daha da genişlənməsinə və möhkəmlənməsinə töhfə verəcəkdir. Daha sonra bir sıra sahələri əhatə edən sənədlər də "Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə Qırğız Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum"u "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Qırğız Respublikası İctimai Teleradio Yayımları Korporasiyası arasında əməkdaşlıq haqqında Saziş"i , "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Qırğız Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş"i "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında rabitə və informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığın inkişafı haqqında Memorandum"u və digər sənədlər imzalanıb ki, bu da əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynayacaq. Azərbaycan ilə Qırğızıstan arasında mədəni əlaqələr də inkişaf edib. Mədəniyyət xadimləri müntəzəm mübadilələr edir, xalqlar arasında əsl dostluq körpüləri mövcuddur. "Əlbəttə, bizi birləşdirən humanitar sahə, bizim mədəni irsimiz, bizim ortaq tarixi, mənəvi köklərimizdir" - deyən Cənab Prezident qeyd edib ki, biz Azərbaycanın qədim Şuşa şəhərinin gələn il türk dünyasının mədəniyyət paytaxtı elan olunması təşəbbüsünü dəstəklədiyinə görə Qırğızıstana təşəkkür edirik: "Biz bütün türk dövlətlərinin, o cümlədən Qırğızıstanın bu qərarını çox yüksək dəyərləndiririk. Şuşa şəhərinin bərpası üzrə planlarımız fəal icra olunur və icra olunacaq. Bu səbəbdən türk dünyasının mədəniyyət paytaxtı adını daşımaq kimi yüksək şərəf bizim üzərimizə qədim, gözəl şəhərimizi daha fəal bərpa etmək öhdəliyi qoyur".

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan bölgədə sülh və əmin-amanlığa nail olmaq məqsədilə fəaliyyət göstərir"


ПРЕЗИДЕНТЪТ НА АЗЕРБАЙДЖАН ИЛХАМ АЛИЕВ ИЗТЪКНА, НА СРЕЩАТА С ЧЛЕНОВЕТЕ ...

Президентът на Азербайджан Илхам Алиев: "Имаме големи надежди за мирния прогрес".


ПРЕЗИДЕНТЪТ НА АЗЕРБАЙДЖАН ИЛХАМ АЛИЕВ ИЗТЪКН СРЕЩАТА С ЧЛЕНОВЕТЕ ...
Президентът на Азербайджан Илхам Алиев: "Имаме големи над мирния прогрес"


БЪЛГАРСКА ТЕЛЕГРАФНА АГЕНЦИЯ
Брутният вътрешен продукт на с 6,8 процента през първото три


Азербайджан отчете ръст на БВП с 6,8% и 600 млн. долара по-малък дълг

## Bolqarıstan mətbuatı Prezident İlham Əliyevin müşavirədəki çıxışını geniş işıqlandırıb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə səsləndirdiyi çıxışı Bolqarıstanın aparıcı xəbər agentliklərində geniş işıqlandırılıb.***

Ölkəmizin Bolqarıstandakı səfirliyndən AZƏRTAC-a bildiriblər ki, yayılan məlumatlarda dövlətimizin başçısının fikirlərinə geniş yer verilib, beynəlxalq təşkilatların postmünaqişə reallıqlarını qəbul etməsi, davamlı sülhün təmin olunması və münasibətlərin normallaşdırılması məqsədilə Azərbaycanın irəli sürdüyü 5 prinsipin Ermənistan tərəfindən qəbul olunması və iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində atılmış addımlara xüsusi yer ayrılıb.

Məlumatlarda Prezident İlham Əliyevin çıxışından sitatlar gətirilərək Azərbaycanın bölgədə sülh və əmin-amanlığa nail olmaq məqsədilə fəaliyyət göstərdiyi vurğulanıb.

Bununla yanaşı, Azərbaycanın 2022-ci ilin birinci rübünün nəticələrinə əsasən əldə etdiyi iqtisadi nailiyyətlər barədə bəhs olunaraq ölkənin Ümumi Daxili Məhsulunun (ÜDM) 6,8 faiz artması, qeyri-neft sektorunun sürətli artım nümayiş etdirdiyi, ölkənin xarici borcunun ÜDM-nin 12,5 faizinə enməsi, bu ilin ilk 3 ayında xarici ticarət dövriyyəsində 5 milyard ABŞ dolları məbləğində müsbət saldonun müşahidə olunması, dövlət büdcəsinin icrasında profisitin yaranması və s. məsələlər yerli oxucuların diqqətinə çatdırılıb.



# Azərbaycanın və Qırğızıstanın birinci xanımlarının görüşü olub

Aprelin 20-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Qırğız Respublikasının birinci xanımı Ayqul Japarova ilə görüşü olub.

## Azərbaycan XİN Türkiyədə törədilən terror aktını qınayıb




Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) Türkiyənin Bursa şəhərində törədilən terror aktını qınayıb. Bu barədə Azərbaycan XİN-in tviter hesabında paylaşım edilib.

"Qardaş Türkiyənin Bursa vilayətində törədilən terror hücumu nəticəsində həyatını itirən məmurun ailəsinə və yaxınlarına hüznlə başsağlığı bildirir, yaralılara Allahdan şəfa diləyirik. Azərbaycan terrorun bütün forma və təzahürlərini qətiyyətlə qınayır", - deyə paylaşımda vurğulanıb.

## Yaponiya saytı Dünya Azərbaycanlılarının Şuşada təşkil ediləcək V Qurultayı barədə məlumat yayıb




Yaponiyanın "ajmedia.jp" saytı Dünya Azərbaycanlılarının Şuşada təşkil ediləcək V Qurultayı barədə məlumat yayıb. AZƏRTAC-a istinadla yapon və ingilis dilində yayımlanan məlumatda qeyd edilir ki, qurultay Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun erməni işğalından azad etdiyi Şuşa şəhərində təşkil ediləcək. Vurğulanır ki, böyük musiqiçilər yetişdirən Şuşa şəhəri Azərbaycanın qədim mədəniyyət paytaxtı hesab edilir.

Həmçinin tədbirdə dünyanın 65 ölkəsindən 400 nəfərə yaxın nümayəndənin iştirakının gözlənildiyi qeyd edilir. Bildirilir ki, qurultayın gündəliyinə əsasən rəsmi açılış mərasimindən sonra Diaspora İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair hesabat verilməsi, "Postmüharibə dövründə Azərbaycan diasporunun qarşısında duran vəzifələr", "Qarabağın bərpası və yenidən qurulmasına Azərbaycan diasporunun töhfələri" mövzularında müzakirələrin aparılması nəzərdə tutulur. Məlumatda Dünya Azərbaycanlılarının V Qurultayının beynəlxalq ictimaiyyətin Azərbaycan həqiqətləri ilə bağlı məlumatlandırılmasında xüsusi rol oynayan diasporumuzun Qarabağın azad edilməsindən sonra ilk böyük görüşü olacağı da əksini tapıb. Vurğulanıb ki, bütün dünyaya səpələnmiş Azərbaycan diasporu son illər yüksək təşkilatlanma və birlik nümayiş etdirir.

# "Azərbaycan dili Azərbaycan xalqının milli sərvətidir"

***"Ümummilli Lider Heydər Əliyevin Azərbaycan üçün misilsiz xidmətlərindən biri də ana dilinin inkişafına xüsusi diqqət yetirməsidir. Çünki Ulu Öndər ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amil olduğunu düşünürdü". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.***




Onun sözlərinə görə, xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır: "Dil, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitə olub. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Lakin Azərbaycan dilinin yaxın keçmişdə ciddi sınaqlarla üzləşdiyini bilirik".

Deputat sözlərinə belə davam edib: "Belə ki, çar Rusiyasının ruslaşdırma siyasətindən sonra 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə dilimizin inkişafına böyük önəm verildi. Daha sonra Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu illərdə isə dilimizə qarşı hücumların yeni dalğası başlandı. "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi. Oxşar vəziyyət özünü radio, televiziya və mətbuatda da göstərirdi. Ölkədə elə bir psixoloji mühit yaradılmışdı ki, hətta, bəzən sıravi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu. Lakin Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu. Sovet Azərbaycanına rəhbərlik edən ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Bunlarla kifayətlənməyən Heydər Əliyev 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı sovet respublikalarından biri idi. Bütün bu fəaliyyət bugünkü müstəqil və azad Azərbaycanın uğrunda bir ilk idi. Həmin dövrdə Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb,

Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilməsi ağla gəlməz bir uğur idi.

Bu həmçinin Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün böyük bir şans idi, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları Azərbaycan dilində nəşr edilirdi. Bu sözün əsl mənasında mədəni inqibal idi.

Həmin dövrə qədər görünməmiş daha böyük bir uğur çoxcildlik "Müasir Azərbaycan dili" kitablarının çapı oldu. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub".

***Ayşən Vəli***

***Ermənilər üçün vətənpərvərlik hissi Ermənistanın baş naziri Nikol Paşinyana qarşı ittihamlar irəli sürmək, yaxud onu müdafiə edənlər sırasına qoşulmaq sayıla bilməz. Yaxud da hansısa məkrli siyasət yürütmək, kimlərinsə torpaqlarına göz dikmək, kimlərinsə yardımlarına, iyanələrinə bel bağlamaq, hiyləgərliklə nələrə isə nail olmaq həvəsi vətənpərvərlik deyil. Ölkəsini düşdüyü, daha doğrusu özlərinin düçar etdikləri bəlalardan xilas etmək istəyi, bu yolda doğru addımlara rəvac verilməsi, düz olan yolda olmaq vətənpərlik hissi hesab oluna bilər. Ermənistanda isə bu müşahidə edilmir, əksinə daha aqressiv hərəkətlərə, yaxud müxtəlif hiylələrə əl atıldığı görünür.***

Təhlil

# Sonsuz dəhşət içində, yaxud dəhşətli sonluq astanasında



Hər dəfə danışıqlar masasında müxtəlif bəhanələr uydurmağa çalışan Ermənistan tərəfi sonda bunun mənasız olduğunun, ağır nəticələrə səbəb olduğunun şahidi oldu. Danışıqlar zamanı hiyləgərliyə əl atmaq, məsələni uzatmaq, hansısa yolla suyu bulandırmq cəhdlərinin onlar üçün hansı itgilərə səbəb olduğunu anlamalı idilər. Anlamalı idilər ki, illər boyu müxtəlif bəhanələr uydurmaları son nəticədə onların yaratdığı mifi də dağıtdı, olan-olmaz hərbi arsenalını da sıfıra endirdi, hətta Azərbaycanla apardıqları müharibədə cəmi 44 gün ərzində biabırçı məğlubiyyətləri ilə bütün dünyada rüsvay oldular. Hər zaman özlərini qalib kimi təqdim etməyə çalışanlar məğlubiyyətlə üzləşdikləri səbəbindən kapitulyasiya sənədinə imza atmalı oldular və hərzamankı kimi yenə də yazıq siması almağı özlərinə rəva bildilər. İndi də özlərini elə yazıq, rəzil göstərirlər ki, elə bil soyqırım siyasəti yürüdən, torpalarımızı işğal edən, yaşayış məntəqələrimizi viran qoyan onlar deyilmiş və sanki dünyanın ən yazıq sakinləri imişlər. Hələ bir tərəfdən də bütün dünyadan hər bir mənada yardım ummaları çox utancvericidir və elə bil bütün dünya bu barbar topluma borcludur, onlar üçün nə isə etməlidir, yaxud da düşmən bəllədiklərinə belə düşmən kəsilməlidir.

Müharibədə, cəmi 44 günlük savaşda hər şeydən məhrum olan, çarəsiz duruma düşən Ermənistan tərəfi danışıqlara can atdı, tamamilə məhv olmamaq naminə döyüşün dayandırılması üçün əldən-ayqdan getdi. Rüsvayçı məğlubiyyətlə üzləşən Ermənistan hakimiyyəti üz tutmadığı ölkə, yaxud ölkə rəhbəri qalmadı və məhv olmaqdan xilas olmaları üçün müvafiq şərtlərə imza atmaq məcburiyyətində qaldı. Bütün erməni cəmiyyəti çox yaxşı bilir ki, Ermənistan çıxılmaz vəziyyətlə üz-üzə idi və danışıqlara getmək, razılaşmalar onlar üçün yeganə çıxış yolu oldu. Bunun ardınca da bir neçə danışıqlar masasında olan Ermənistan müvafiq öhdəliklər götürdü və bu öhdəliklər əslində süqut etmək təhlükəsindən yaxa qurtarmaq hesab olunur. Maraqlıdır, indi ermənilər nə arzusundadırlar və öhdəliklərinə əmək etmək əvəzinə daha hansı çirkin yollar fikirləşiblər?

İndi də əlləri hər şeydən üzülən ermənilər növbəti dəfə adətləri üzrə böhtana əl atırlar və Azərbaycana qarşı şər kampaniyası niyyətindədirlər. Məqsəd də bəllidir və bu kampaniya ilə ermənilər rusları, Rusiya hökumətini Azərbaycana düşmən etməyi, ən azından bizimlə rəqabət aparmağa sövq etməyi planlaşdırırlar. Hətta Ermənistana məxsus mətbuat səhifələri yazır ki, Azərbaycanla bağlı Kreml nəyi isə bilməlidir. Deməli, Kremlin guya nəyi isə bilməsini ermənilər yaman çox istəyirlər və görəsən bu onların nəyinə lazımdır? Maraqlıdır, Rusiyanın nəyi isə bilib-bilməməsindən ermənilərə nə? Bu toplum rusların təəssübkeşi kimi özlərini göstərmək istəyirlər, yoxsa düşmənçiliklərini davam etdirmək üçün Rusiyanı da bu ədavətə cəlb etmək arzusundadırlar? Sözsüz ki, ermənilərin təəssübkeşliklərindən söhbət belə gedə bilməz və tarix boyu onların necə dırnaqarası "təəssübkeş" olduqlarına ruslar özləri hamıdan yaxşı bələddirlər. Bunu elə biz də yaxşı bilirik və torpaqlarımızda yaşamalarına izn verdiyimiz nankorların sonda üstümüzə silah çəkdiyini, torpaqlarımızı işğal etdiklərini, yurd-yuvamızı viran qoyduqlarını, həmvətənlərimizə qarşı soyqırım siyasəti yürütdüklərini də gördük.

Sözsüz ki, ermənilər rusları qıcıqlandırmaq, yalanlarına inandırmaq fikrinə düşüblər. İndi ermənilər istəyirlər ki, Bakıya qarşı Rusiya tərəfindən hansısa təzyiqlər edilsin və bunun üçün böyük rus qardaşlarını öz yalanlarına inandırmağa çalışırlar, amma onların nə xislətdə olduğunu nəinki rusların, ümumiyyətlə, bütün dünyanın bildiyini unudurlar. Unudublar ki, illər, onillər boyu onlara havadarlıq etməsi qarşılığında ruslar onlardan yalnız xəyanət gördülər. Amma ruslar heç zaman unutmazlar ki, ermənilər onları dəfələrlə Qərbin ayaqları altında atmaqdan çəkinmədilər. Rusların onlara etimadının olmadığını ermənilər özləri hamıdan yaxşı bilirlər, amma hər ehtimalla yenə də öz çirkin niyyətlərinə bir də baş vurduqları müşahidə edilir. Bu məqsədlə Azərbaycana böhtan atmaq ənənələrinə sadiq qalaraq yenə də hansısa yalanlara, şərə yol açmaq onlar üçün qəbuledilən sayılıb. Halbuki belə böhtanlarla aranı qarışdırmaq ümidləri bundan sönra cücərən deyil və Azərbaycanın mövqeyi də, tutduğu yol da təkcə Rusiyaya deyil, bütün dünyaya bəllidir.

Azərbaycan balanslaşdırılmış siyasət yürüdür və heç bir ölkəyə qarşı ədavət aparmaq niyyətində deyil. Bunu bütün dünyaya da bəyan etmişik və bu həqiqət hamı tərəfindən qəbul edilir. Ölkəmizin necə tolerant ölkə olduğunu da bütün dünya ictimaiyyəti çox yaxşı bilir, nəinki ruslar. Eyni zamanda Rusiya tərəfi bilir və görür ki, Azərbaycanda ruslara qarşı heç bir əks mövqe yoxdur və olacağı da gözlənilən deyil. Ölkəmizdə rusların azərbaycanlılarla bir yerdə, birgə necə yaşadığı da göz önündədir. Bir nəfər belə bununla bağlı narazı olmayıb və belə bir şərait qənaətbəxşdir. Bununla yanaşı Azərbaycanda rus dilinin istifadəsi, rusdilli məktəblərin olması da təkzib edilə bilməz. Bunu da bütün dünya bilir. Elə isə bu şəraitdə rus dilinə qarşı Azərbaycanda hansısa qadağalar barədə ermənilərin danışmasına ən mədəni şəkildə desək, böhtan və şərdən başqa daha nə ad vermək olar? Təbii ki, yenə də məqsəd bəllidir və burada niyyət rusları qıcıqlandırmaqdır, amma ermənilər özləri də yaxşı bilirlər ki, buna inanan olmayacaq. Əksinə, bu kampaniya niyyəti belə onların simasızlığını bir daha açıq şəkildə bütün dünyaya göstərir.

Ermənilər iddia edirlər ki, ruslar bir çox məsələləri görmürlər. Hətta Ermənistana məxsus mətbuat səhifələri yazır ki, Rusiya Ukrayna bataqlığında batıb və bunun ardınca sonra da utanmadan yardım dilənirlər. Bəli, ermənilər bir tərəfdən yazırlar ki, Rusiyanın Ukraynada üzləşdikləri təkcə məğlubiyyət deyil, həm də alçaldılmadır, digər tərəfdən də gileylənirlər ki, ruslar ermənilərə niyə kömək etmək istəmirlər. Bunlar bir tərəfdən o fikri dövriyyəyə buraxırlar ki, Rusiyanın zəiflədiyinə dair çoxlu sübutları var və bu ölkənin döyüş qabiliyyəti zəifləyib, maliyyə və iqtisadi cəhətdən zəifləmələri göz önündədir, digər tərəfdən də yardım diləyirlər. Maraqlıdır, zəif qələmə verdikləri ruslardan yardım istəmək dilənməkdən başqa nəyə bənzəyə bilər? Hələ bir tərəfdən də utanmadan Qərbin gözündə Ermənistanın hansısa statusa malik olduğunu iddia edirlər və bu statuslarına da Rusiyanın mane olduğunu bildirirlər. Həqiqətən də çox gülünc səslənməklə yanaşı, həm də çox acınacaqlı yanaşmadır. Çünki, əvvəla Qərbin Ermənistan barədə, bu işğalçı ölkənin nəinki yalanları, ələlxüsus cinayətkar, işğalçı əməlləri barədə artıq kifayət qədər məlumatı var və bundan sonra nəyə isə iddialı olmaları həqiqətən özlərini aldatmalarıdır. Digər tərəfdən də Qərb mövzusunda rusları günahkar bilənlər olmayan o hansı üzlə kömək umurlar? Qərbin, yaxud Rusiyanın günahkar olub-olmaması müzakirə mövzusu deyil, söhbət erməni simasızlığından gedir və belə bir həyasızlığa sahib olmaları adamda izah edilməsi mümkün olmayan hislər, ikrah hissi döğurur.

Bir tərəfdən baş nazir Nikol Paşinyanı satqınlıqda, milli maraqlara xəyanətdə, yəni xəyanətkarlıqda ittiham edirlər, digər tərəfdən onu müdafiə edirlər və bəlli olur ki, bu çaşqın cəmiyyət ya sonsuz dəhşət içindədir, ya da dəhşətli sonluqla üz-üzədir. Ölkəsinin acınacaqlı durum qarşısında qaldığını görmələri fonunda hələ də oyunbazlıq etməkdə davam edirlər. Hər dəfə erməni baş nazir Nikol Paşinyan danışıqlar masasında oturan zaman ölkəsinin acınacaqlı vəziyyətdə olduğunu görür, həyəcan keçirir, sonra da üzərinə götürdüyü öhdəliklərinə əməl edəcəyi barədə vədlər verir, bununla bağlı fikirlər səsləndirir, amma bir müddət keçəndən sonra yenə də adəti üzrə sərsəm bəyanatlarla gündəmə gəlməyi özünə rəva bilir. Erməni baş nazirin belə sərsəm hərəkətlərinə müvafiq olaraq erməni cəmiyyətində də çaşqınlıqlar hökm sürür. Ölkənin acınacaqlı durumda olmasına rağmən hansısa revanşist fikirlər səsləndirənlər nəyə ümid edə bilərlər? Əslində ümidsizlik girdabında ikən iddialar səsləndirmək, toplumun başını itirməsi deməkdir və cəmiyyətin dəhşət içində olması anlamına gəlir. Yaxud, bir cəmiyyət düşdüyü açınacaqlı durumu başa düşmürsə, xilas yolunu anlamırsa, deməli həmin cəmiyyət dəhşətli sonluqla üz-üzədir. Əgər bu gün erməni cəmiyyəti nə etməli olduğunun, öhdəliklərinə əməl etməyin yeganə çıxış yolu, qurtuluş olduğunun fərqində deyilsə, anlamırsa ki, belə davam edəcəyi təqdirdə məhvə sürüklənir, deməli sonluğun daha dəhşətli olacağı həmin cəmiyyət üçün qaçılmazdır. Bir sözlə, öz öhdəliklərindən boyun qaçırmağa çalışan, müxtəlif bəhanələrlə, yalanla, böhtanla, şərlə yenə də öz-özünü aldadan cəmiyyət sonsuza qədər davam edən, sonsuz dəhşət içindədir, yaxud dəhşətli sonluq astanasındadır.

***İnam Hacıyev***

## Azərbaycanda dərmanları kimlər bahalaşdırır?



"Ölkədə dərman preparatlarının qiymətinin həddindən artıq baha olması mövcud bazarlarda yaxşı olmayan ən mənfi tərəflərdən biridir. Çünki məhz dərman preparatları insanlar üçün gündəlik ərzaq məhsullarından daha çox vacibdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eldəniz Əmirov deyib.

Onun sözlərinə görə, buna görə də bilavasitə bu sahənin daha diqqətli şəkildə nəzarətdə saxlanılmasına böyük ehtiyac var: "Bildiyimiz kimi qida və sağlamlıq bütün ölkələrdə əsas məsələlərdən biridir. Dərman preparatları, vasitələri idxal olunduğu ölkələrdən qat-qat baha qiymətə ölkəmizdə satılır. Bunun da əsas iki istiqamətdə qaynaqlanan səbəbləri var. Dərmanların baha olmasının əsas səbəbi ölkədə istehsalın olmaması, idxaldan asılılığın həddindən artıq ifrat səviyyədə olmasıdır. Digər bir məsələ isə ölkəyə dərman gətirən şirkətlərin dərman bazarında qiymət diqtə etmək funksiyalarının çox yuxarı səviyyədə olmasıdır.

Nəzərə alsaq ki, Rusiyadan dərman preparatları Azərbaycana daha çox idxal olunurdu. Hazırda baş verən münaqişə bu sahədə öz təsirini göstərir. Müəyyən çatışmazlıqlar alternativ dərmanların alınmasına gətirib çıxardır. Bu da birbaşa qiymət artımına səbəb olan amillərdən biridir".

***Arzu Qurbanzadə***

# YAP Mərkəzi Aparatının təşkilatçılığı ilə "Dayanıqlı İnkişaf Məqsədləri: Təhsilli qadın, təhsilli cəmiyyət" mövzusunda tədbir keçirilib

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının təşkilatçılığı ilə partiyanın Suraxanı rayon təşkilatında "Dayanıqlı İnkişaf Məqsədləri: Təhsilli qadın, təhsilli cəmiyyət" mövzusunda tədbir keçirilib.***



Tədbiri giriş nitqi ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, təhsildə uğurların əldə olunması hər bir cəmiyyət üçün çox vacib amillərdəndir. Cəmiyyətin digər sahələri ilə yanaşı gender bərabərliyinin bu istiqamətdə də uğurla tətbiq edilməsi təqdirəlayiq haldır. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasında da gender bərabərliyinin təmin olunması, qadınların da kişilərlə bərabər partiyanın rəhbər orqanlarında təmsil olunması partiyamızın bu sahəyə yanaşmasını real ifadə etməkdədir. VII qurultaydan sonra YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi yaradılması da bu faktı bir daha təsdiqləyir.
















Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva mövzunun aktuallığından danışaraq bildirib ki, təhsil hər bir millətin gələcəyi üçün mühüm faktordur. Onun sözlərinə görə, təhsilli qadınlar cəmiyyətin inkişafına böyük töhfələr verirlər. Bu mənada, "təhsilli qadın təhsilli cəmiyyət deməkdir" fikri özünü təsdiq edib.

Tədbirdə Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Afət Həsənova çıxış edərək təhsilin cəmiyyət üçün layiqli vətəndaş yetişdirdiyini diqqətə çatdırıb. Mütəfəkkirlərin təhsilin əhəmiyyəti haqqında kəlamlarını xatırladan deputatın sözlərinə görə, Azərbaycanda bu sahəyə dövlət tərəfindən xüsusi diqqət yetirilir. O bildirib ki, respublikamızda təhsilin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasətin Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən komitə üzvü son illər Azərbaycan təhsilinin böyük nailiyyətlər qazandığını söyləyib. Deputat təhsillə təlim-tərbiyənin bir-birinə sıx bağlı olduğunu deyərək qadınların bu prosesdə rolunu xüsusi vurğulayıb.




Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva isə Azərbaycanda tarixən qadın amilinə böyük önəm verildiyini söyləyib. O xatırladıb ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçmək və seçilmək hüququ verilib. Halbuki, bu gün dünyada ən demokratik hesab olunan ölkələrdə qadınlara o zaman belə hüquqlar verilməmişdir. Deputat, ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldikdən sonra dövlət qadın siyasətinin əsasının qoyulduğunu diqqətə çatdırıb. Hazırda milli təhsilimizin beynəlxalq miqyasda da nailiyyətlər qazandığını deyən deputatın sözlərinə görə, bu nailiyyətlərin əldə olunmasında elm və təhsil sahəsində çalışan qadınların böyük payı var. O eyni zamanda, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan təhsilinin inkişafına verdiyi töhfələrdən bəhs edib.

Çıxış edən Bakı şəhəri üzrə Təhsil İdarəsinin ümumi sektorunun müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Sevinc Rəsulova bildirib ki, təhsilli cəmiyyət xoşbəxt cəmiyyətdir. Onun sözlərinə görə, ölkənin təhsil sistemində qadınlar üstünlük təşkil edir. Təkcə Bakı şəhərində xüsusi təmayüllü məktəblər istisna olmaqla 316 məktəb fəaliyyət göstərir ki, bu məktəblərdə çalışan müəllimlərin sayı 25 min 362 nəfərdir. Onların da 94 faizi qadınlardan ibarətdir. S.Rəsulova eyni zamanda təhsil sahəsində mövcud olan problemlərdən və onların həlli yollarından da bəhs edib.

Tədbirdə YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsi müdirinin müavini Məhəmməd Məhərrəmov çıxış edərək təhsilin hər bir cəmiyyətin inkişafının əsasını təşkil etdiyini bildirib. O qeyd edib ki, təhsil hər bir xalqın gələcəyi üçün işıqlı yoldur. Hazırda dünyanın bir sıra regionlarında münaqişələrin, ölkələr daxilində qarşıdurmaların baş verdiyini deyən M.Məhərrəmovun sözlərinə görə, bunun əsas səbəblərindən biri intellektual, yüksək təhsilli cəmiyyətlərin olmamasıdır. Natiq Azərbaycanda yüksək təhsilli cəmiyyətin önəmindən danışaraq bu prosesə qadınların böyük töhfələr verdiyini vurğulayıb.

Daha sonra tədbir diskussiya şəraitində davam edib, iştirakçıların sualları cavablandırılıb.

# İnkişafın Azərbaycan modeli: aqrar sahənin inkişafına dövlət qayğısı



*İlham Əliyev: "Kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq"*

***Tarixin bütün dövrlərində hər bir dövlətin qarşısında duran və bu gün də öz aktuallığını qoruyub saxlayan ən vacib vəzifələrdən biri əhalinin ərzaq məhsulları ilə etibarlı təminatıdır.***

Məhz buna görə də ölkəmizdə ərzaq təhlükəsizliyinin gücləndirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Çünki etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu mənada Prezident İlham Əliyevin ölkənin ərzaq təhlükəsizliyini daim diqqət mərkəzində saxlaması və bu məqsədlə ölkəmizdə davamlı olaraq zəruri tədbirlər həyata keçirilməsi nikbinlik doğurur. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2021-ci ildə həyata keçirilən siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf meyilləri davam etdirilib, pandemiyanın milli iqtisadiyyata mənfi təsirləri minimuma endirilib. Reallıq budur ki, bütövlükdə 2021-ci ildə ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub: ümumi daxili məhsul 5,6% artıb (onun həcmi 92,8 mlrd. manat təşkil edib), qeyri-neft sektoru üzrə artım 7,2% olub, sənaye istehsalı 5.2%, qeyri-neft sənayesi isə 18,9% artıb, ölkənin strateji valyuta ehtiyatları 2,5 mlrd. dollara yaxın artaraq 53,2 mlrd. dolları ötüb və xarici dövlət borcunu 6 dəfədən çox üstələyib və s. Buna baxmayaraq, orta illik inflyasiya 6,7%, o cümlədən, ərzaq inflyasiyası 8,1%, qeyri-ərzaq inflyasiyası 5,1% təşkil edib. İnflyasiyanın illik səviyyəsi isə 12% olub.

### ”Çalışmalıyıq ki, yerli istehsal artsın, ilk növbədə, məhsuldarlıq hesabına”

Prezident İlham Əliyev 2021-ci il yanvarın 18-də keçirilən müşavirədə ölkədə taxıl istehsalında olan real vəziyyət və perspektivlər barədə danışaraq bildirib ki, biz mövcud əkin sahələrindən özümüzü maksimum dərəcədə ərzaq buğdası ilə təmin edə bilərik: ”Biz təqribən 3,3-3,4 milyon ton buğda istehlak edirik. Onlardan cəmi 2 milyonu Azərbaycanda istehsal edilir. Qalanını idxal edirik və əgər mən bu gün desəm ki, biz 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edə bilərik, yəqin ki, indiki şəraitdə səhv olar. Amma çalışmalıyıq ki, yerli istehsal artsın, ilk növbədə, məhsuldarlıq hesabına. Çünki bu gün taxılçılıqda məhsuldarlıq 32 sentnerdir, yəni 3,2 tondur. Əgər bu rəqəm 4 tona, 4,5 tona çatsa, bu mümkündür, çünki iri fermer təsərrüfatlarının bəzilərində 7 tondur, bəzilərində 6 tondur. Mən bu təsərrüfatlarda olmuşam və bu təsərrüfatların yaradılmasında da fəal iştirak etmişəm. Onda biz mövcud əkin sahələrindən özümüzü maksimum dərəcədə ərzaq buğdası ilə təmin edə bilərik”.

Dövlət başçısı, həmçinin, işğaldan azad edilən torpaqların əkilib-becərilməsi sayəsində buğda istehsalını artırmağın mümkün olduğunu da bildirib: ”Bizim istəyimizlə imkanlarımız bu gün üst-üstə düşmür. Ona görə hər kəs bu real vəziyyəti görməlidir və nə mümkünsə biz edirik. Mən deməl olar ki, gündəlik formatda bu işlə məşğul oluram. Ümid edirəm ki, ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq”,- deyən dövlət başçısı bir daha vurğulayıb ki, ”hər halda biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik, mən buna inanıram”.



### MDB ölkələrinin heç biri aqrar sektorda belə yüksək göstəriciyə nail ola bilməmişdir

Qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi üçün kənd təsərrüfatının sürətli və davamlı inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu, həm də milli təhlükəsizlik məsələsidir. Çünki əhalinin ərzaq təhlükəsizliyini təmin etmək ölkənin sərhədlərini qorumaq qədər vacibdir. Son 18 ildə bu istiqamətdə görülən işlərin miqyası və vüsəti heyrət doğurur. Belə ki, 2003-2020-ci illər arasında Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfə artmışdır. MDB ölkələrinin heç biri aqrar sektorda belə yüksək göstəriciyə nail ola bilməmişdir. Əldə olunan uğurlar dövlətimizin bu sahədə düşünülmüş uğurlu siyasəti sayəsində mümkün olubdur. Azərbaycanda 2004-cü ildən başlayaraq, cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionların inkişafı istiqamətində uğurla həyata keçirilən dövlət proqramları bölgələrdə yeni müəssisələrin açılmasına, iş yerlərinin yaradılmasına, son nəticədə əhalinin güzəranının daha da yaxşılaşmasına səbəb olubdur.

Hətta 2020-ci il ərzində yeni koronavirus pandemiyasının yaratdığı çətinliklər ölkəmizdə kənd təsərrüfatının inkişafına ciddi fəsadlar törədə bilməmişdir. Belə ki, Azərbaycanda ötən il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 8428,9 milyon manat təşkil etmişdir ki, onun da 4400,5 milyon manatı heyvandarlıq, 4028,4 milyon manatı bitkiçilik məhsullarının payına düşmüşdür. 2021-ci ildə buğda, dən üçün qarğıdalı, şəkər çuğunduru, kartof, meyvə və giləmeyvə, üzüm, yaşıl çay yarpağı və tütün istehsalı və tədarükü xeyli artmışdır. Bütün bu sahələrdə respublika üzrə orta məhsuldarlıq ötən ildəkindən yüksək olmuşdur.

### İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı

Məlum olduğu kimi, Ermənistanın təcavüzü nəticəsində min hektarlarla əkinə yararlı torpaq sahələri yararsız hala düşmüşdür. Torpaqların uzun müddət əkilməməsi, becərilməməsi onun korlanmasına səbəb olmuşdur ki, bu da gələcəkdə həmin torpaqlardan yüksək məhsul əldə etməyə zəmanət vermir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, işğal altında olan kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsinin, 231,056 əkin, 352 min hektara yaxın örüş - otlaq və biçənək sahəsinin illər boyu istifadə edilməməsi əkilib- becərilməməsi, korlanması qəbuledilməzdir və inkar olunmazdır ki, həmin sahələrdən min tonlarla taxıl, pambıq, kartof, üzüm, tütün, tərəvəz götürmək mümkün idi. Təəssüflər olsun ki, erməni təcavüzkarlarının işğalı nəticəsində əhalimiz öz torpaqlarını əkib becərməkdən məhrum olmuş və bu dövrlərdə yüz min tonlarla kənd təsərrüfatı məhsulu itirilmişdir.

Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarda bütün sahələr üzrə planlı şəkildə bərpa-quruculuq işləri ilə yanaşı, kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı işlərə artıq başlanılıb. Belə ki, bu gün Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə ”ağıllı kənd” və ”ağıllı şəhər”lərin qurulması layihələri böyük uğurla reallaşır. İlk olaraq şğaldan azad edilmiş ərazilərə təsərrüfatların köçürülməsi və azad edilmiş ərazilərdə aqrar fəaliyyətin bərpası olub. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, bu il ilk dəfə olaraq pilot layihə çərçivəsində Kəlbəcər və Laçın yaylaqlarına həmin rayonlardan olan fermerlərin arıçılıq, qoyunçuluq təsərrüfatları köçürülüb. Layihə əvvəl pilot olaraq kiçik təsərrüfatlar - 5 arıçılıq, 6 qoyunçuluq təsərrüfatı köçürülüb. Həmin ərazilərdə risklər dəyərləndirildikdən sonra həmin təsərrüfatların sayı artırılıb. 2021-ci ildə qida zəncirində mühüm yerə sahib olan taxılçılıqda yüksək nəticə əldə edilib və digər sahələrdə, həmçinin, ixrac imkanları olan aqrar sahələrdə artım qeydə alınıb.

Bəli, Azərbaycan kəndini qarşıdakı illərdə parlaq gələcək gözləyir. Bu gün işğaldan azad edilmiş ərazilərdə aqrar inkişafın yeni, Azərbaycan modeli qurulur. Bu model tezliklə ölkəmizin digər regionlarında da tətbiq olunacaq. Bir sözlə, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyi sərəncamlar və görülən işlər əldə olunan onu deməyə əsas verir ki, Azərbaycan yaxın gələcəkdə, digər sahələrdə olduğu kimi, kənd təsərrüfatı sektorunda da regionun, eləcə də, Avropanın lider dövlətinə çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**





Sara Əbilova


Kəmalə Vəliyeva

***Dünya Azərbaycanlılarının Qurultayının çağırılması ilə bağlı ilk təşəbbüs 1992-ci ildə olub. Bildiyimiz kimi Dünya Azərbaycanlılarının V Qurultayı bu il Şuşada keçiriləcək.***

# Şuşada keçiriləcək qurultaya CƏMİYYƏTİN BAXIŞI NECƏDİR? - SORĞU


Ağa İsrafilov


Aysel Quluzadə


Vəli Nəsibov


Novruz Əsədov

SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib. Bəs gəlin görək, onlar qurultayın əhəmiyyətini necə dəyərləndirirlər?

**Şəhər sakini Ağa İsrafilov:** "Şuşanın yeri bizim üçün həmişə ayrı olub. Şuşanın işğaldan azad olunması hər bir azərbaycanlı üçün çox qürurverici bir hissdir. Mən özüm də Vətən müharibəsinin iştirakçılarından biriyəm. Xüsusilə Şuşanın azad olunması və bu gün orada bir çox beynəlxalq tədbirlərin təşkil olunması mühüm əhəmiyyət kəsb edir. Dünya azərbaycanlılarının V qurultayı bu il Şuşada keçiriləcək. Bu dünyadakı bütün azərbaycanlılar üçün çox böyük əhəmiyyət kəsb edən bir hadisədir".

**Şəhər sakini Aysel Quluzadə:** "Şuşa Azərbaycanın mədəniyyət ocağıdır. Bildiyimiz kimi Şuşanın işğaldan azad olunması hər bir azərbaycanlı üçün çox qürurverici bir hadisə idi. Bu gün Şuşa azaddır və Şuşada dövlət əhəmiyyətli tədbirlər keçirilir. Bu il dünya azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi həmçinin qarşı tərəfə bir gözdağıdır".

**Şəhər sakini Vəli Nəsibov:** "Əlbəttə Şuşanın, ümumilikdə Qarabağın işğaldan azad edilməsi bütün dünyaya bir daha sübut etdi ki, Azərbaycan çox güclü bir dövlətdir. Bu 30 il ərzində Ermənistan bizim torpaqlarımızı darmadağın edib. Bu gün isə həmin torpaqlarımız işğaldan azaddır və günü-gündən abadlaşır. Şuşa günü-gündən Azərbaycanın gözəl guşələrindən birinə çevriləcək. Bu gün Qarabağda bir çox tədbirlər keçirilir, təşkil olunur. Dünya azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi bütün dünyaya bir mesajdır".

**Şəhər sakini Kəmalə Vəliyeva:** "Şuşada dünya azərbaycanlılarının V qurultayının keçirilməsi çox qürurvericidir. Biz çox sevinirik və qürur duyuruq. Çünki Şuşanı biz işğaldan azad etdik. Şuşada bu gün abadlıq-quruculuq işləri aparılır. Şuşa günü-gündən gözəlləşir. Düşünürəm ki, tezliklə Şuşa təkcə Azərbaycanın yox, bütün dünyanın mədəniyyət paytaxtına çevriləcək".

**Şəhər sakini Novruz Əsədov:** "Bir azərbaycanlı kimi fəxr edirəm ki, Şuşa artıq bizimdir. Şuşa işğaldan azad edilərkən biz hədsiz sevindik. Bu gün Şuşada bir sıra tədbirlər keçirilir. Artıq bütün dünya bir daha əmin oldu ki, Qarabağ Azərbaycanındır".

**Şəhər sakini Sara Əbilova**: "Dünya azərbaycanlılarının V qurultayı bu gün Şuşada keçiriləcək. Düşünürəm ki, bu bütün dünyadakı azərbaycanlılar üçün qürurverici bir hissdir. Biz tezliklə Qarabağa da qayıdacağıq. Bu gün Şuşada keçirilən tədbirlər Ermənistan tərəfinə də bir növ gözdağıdır".


Novruz İsmayılov

**Şəhər sakini Novruz İsmayılov:** "Artıq bütün dünya da anladı ki, Qarabağ Azərbaycanındır. Şükürlər olsun ki, 30 ildən sonra torpaqlarımızı işğaldan azad etdik. Biz bu gün Qarabağa rahat bir şəkildə gedib-gələ bilirik. Dünya azərbaycanlılarının V qurultayının Şuşada keçirilməsi hər bir azərbaycanlı üçün böyük bir əhəmiyyət kəsb edir".

***Arzu Qurbanzadə***



# Putin-Paşinyan görüşündən doğan Ermənistan "baharı"



## Armenianreport: "Nə qədər acı olsa da, pisin-pisindənsə pisin ən yaxşısını görməyi qəbul etməkdən başqa çarə də yoxdur"

ANALİTİK-AKTUAL

"Biz Nikolu və komandasını nə qədər tənqid etsək də, bütün hallarda cürət tapıb etiraf etməliyik ki, o pislərin ən yaxşısıdır". SİA xəbər verir ki, bu fikirlər armenianreport saytının analitik yazarı, siyasi ekspert Tevos Arşakyanın "Erməni müxalifətinin mitinq baharı: hamı hamıya qarşı" sərlövhəli məqaləsində qeyd olunub.

Lakin məsələ ondadır ki, sözügedən məqalədə irəli sürülən fikirlərə diqqət yetirərkən, bir çox hallarda bütövlükdə Ermənistanda cərəyan edən mövcud və müəyyən məqamların, yanaşma tərzlərinin həqiqət olduğunu da qeyd etmək olar - təbii ki, digər bir sıra "artsax" xarakterli qəbulolunmaz məsələləri istisna etməklə, yerdə qalan fikirlərdə isə reallıqları görməmək olmur. Həmin fikirlərdən bir neçəsini önə çəkməklə yanaşı, öz şərhimizi də verək və nəticə hasil edək.

### "Koçaryanla və Sarqsyanın tərəfdarları, daşnaklar, Sarukyanın sağ mərkəzçiləri, rusiyapərəst və qərbpərəst qüvvələr..."

Beləliklə, son günlər İrəvanda bir neçə müxalifət partiyaları ölkədə yeni - "İrəvan baharı" xarakterində kütləvi aksiyalar keçirməklə mövcud hakimiyyətin istefasını tələb edirlər və bunun səbəbi kimi Nikol Paşinyanın "artsaxın maraqlarını təslim etməkdə" görürlər.

SİTAT: "Mitinqlər keçirirlər, etiraz aksiyaları, müqavimət hərəkatları yaradırlar, bu gün praktiki olaraq hər kəs müxalif sahədədir - Paşinyana nifrət məqsədində vahid hərəkatda olan və bir-birləri ilə elə də yola getməyən Koçaryanla və Sarqsyanın tərəfdarları, daşnaklar, Sarukyanın sağ mərkəzçiləri, rusiyapərəst və qərbpərəst qüvvələr. Və hər kəs mövcud hökumət başçısının və komandasının hakimiyyətdən uzaqlaşdırılması üçün hansısa "yol xəritəsi" barədə danışırlar, halbuki onların bu şansları kifayət qədər aşağıdır".

Göründüyü kimi, Tevos Atşakyan bu mənada həqiqəti qeyd edir və doğrudan da sözdə birləşmiş, amma nəticə hasil edə bilməyən müxalifət qütblərinin hətta belə olan halda heç nəyə nail ola bilməyəcəyini vurğulayır. O cümlədən, əlavə edir ki, söhbət heç də hakimiyyətin arsenalından olan repressiv aparatından getmir, söhbət həm də ondan gedir ki, sabiq ölkə başçısı Serj Sarqsyanın 2018-ci ildəki repressiv aparatı heç də zəif deyildi, amma buna baxmayaraq o hakimiyyətdən devrilməsi prosesini dayandırmağa müvəffəq ola bilmədi.

### "Təəssüf və depressiya içində olan cəmiyyət bütün bunlara baxmayaraq çətin ki, keçmiş hakimiyyətlərin bərpasını istəsin"

Erməni müəllif bu məsələdə cəmiyyətin də mövqeyini bölüşüb və yazır: "Özünün sosial-iqtisadi və məişət vəziyyətinin ağır-ağır düzəlməsindən dolayı təəssüf və depressiya içində olan cəmiyyət bütün bunlara baxmayaraq çətin ki, keçmiş hakimiyyətlərin bərpasını istəsin. Biz Nikolu nə qədər tənqid etsək də, özümüzdə cürət taparaq onun pislərin ən yaxşısı olduğunu deməliyik.

Bəli, cəmiyyət hazırda son həddinə qədər qütbləşib, ancaq baxın görün ki, müxalifəti dəstəkləmək üçün küçələrə nə qədər insan çıxıb? Min? 10 min insan? Maksimum 15. Bu, etiraz elektoratının həmin kütləsi deyil ki, Paşinyanı devirməyi bacarsın. Cəmiyyətin böyük kəsimi öz içlərində sabiqləri lənətləyirlər və onlara görə barrikadalara getməyə hazır deyillər. Özü də sadə insanlar əsas müxalifət qüvvələrinin - "Ermənistan" və "Şərəfim var" bloklarının qorxaqlıqlarını və hikkələrini görürlər. Həm də nəyə görə uzağa gedək? Baxın-görün "Şərəfim var" blokunun əsas qüvvəsi, Respublika partiyası hakimiyyətin ünvanına necə ucuz ittihamlar yağdırırlar. "Paşinyan və Əliyev bir yerdə Minsk qrupu formatını dağıdırlar", deyə Respublika partiyasının sədri Armen Aşotyan özünün FB səhifəsində yazıb.

### "Həmsədrlər institutunun daxildən parçalanması çoxdan gedirdi və nəticə olaraq indi rəsmiləşdi, Əliyev isə həmin faktı vurğuladı"

Armenianreport-un siyasi eksperti Aşotyanın fikirlərinə xitabən davam edir: "Bağışlayın, yalnız axmaq olmaq lazımdır ki, ATƏT MQ-nun dağılmasını Əliyevlə Paşinyanın məqsədi olaraq ehtimal edəsən. Fransadan, ABŞ-dan və Rusiyadan olan həmsədrlərin formatı Rusiyanın Qərblə qarşıdurmasındakı mövcud geosiyasi situasiyada apriori (vəziyyətdən asılı olaraq - R.R.) mümkün deyil.

Həmsədrlər institutunun daxildən parçalanması çoxdan gedirdi və nəticə olaraq indi rəsmiləşdi, Əliyev isə həmin faktı vurğuladı. Elə Rusiyada da Lavrovun və Zaxarovanın vasitəsi ilə ATƏT MQ-nun "ölümünü" faktiki olaraq elan etdi. Bəs rusiyayönümlü Ermənistan Respublika Partiyası Moskvanı tənqid etməyə cürət edərmi? Əlbəttə yox. Serjikçilər üçün bu məsələdə Paşinyanı ittiham etmək daha asan və təhlükəsizdir və onlar sadəlöhvcəsinə inanırlar ki, cəmiyyət bu primitiv tilova düşəcək".

### "Məgər İrəvanı "sındıran" və Əliyevlə Ərdoğanın xeyirlərinə oynayan Putin deyilmi?"

Tevos Arşakyan Koçaryan-Sarqsyan tərəfdarlarına münasibətini maraqlı şəkildə davam etdirib. Onun yazdığına görə, Koçaryan və Sarqsyan tərəfindən maliyyələşdirilən KİV-lər Paşinyanın Moskvaya səfərini tənqidə məruz qoyublar.

"Guya Nikol "artsaxı" birdəfəlik təhvil verməyə gedir", deyə yazan erməni analitiki iddia və sual edir ki, sən demə Putin Qarabağ məsələsinə birdəfəlik son qoymaq üçün İrəvanı "sındırır" və o, Əliyevlə Ərdoğanın əlinə oynayır. Bu cəhətdən, "Nikol "artsaxı təhvil verməyə gedir" iddiasına belə bir münasibət bildirib: "Kimə təhvil verir? Rusiyaya? Məgər İrəvanı "sındıran" və Əliyevlə Ərdoğanın xeyirlərinə oynayan Putin deyilmi? Nəyə görə müxalifətin əlindən qidalanan bizim "həmkarlarımız" (erməni jurnalistlərini nəzərdə tutur-R.R.) hər şeyi öz adı ilə çağırmaqdan ehtiyat edirlər?".

### "Artur Vanetsyan əyninə Ermənistanın maraqları uğrunda mübarizə aparan rob geyinib, gülüncdür, Allah haqqı"

Müəllif digər müxalifət lideri, məhz Paşinyanın hakimiyyətində Milli Təhlükəsizlik Xidmətinə (MTX) rəhbərlik etmiş və istefaya getmiş, hazırda müxalifət cinahında yer alan "Vətən" partiyasının lideri Artur Vanetsyanı da hədəfə alıb. O yazır: "Yaxud müxalifətin daha bir riyakar "lideri" - "Şərəfim var" fraksiyasının rəhbəri Artur Vanetsyan. Bu adam feal şəkildə vətəndaşları "Azadlıq" meydanına çağırır. MTX-nin direktoru postunda olarkən bütün dünyaya rüsvay oldu.

Mən gizli dinləmə qalmaqalını nəzərdə tuturam. Hansı ki, Vanetsyan və xüsusi istintaq idarəsinin rəhbəri Sasun Xaçatryan 1 mart işini müzakirə edirdilər. Və bu insan, onun xidmət etdiyi idarə Ermənistanın dövlətçilik maraqlarının mühafizəsində dayanmalıydı? Halbuki onlar özləri-özlərini müdafiə edə bilmirlər. Sonra isə gizli dinləmə ilə bağlı daha bir qalmaqal baş verdi və Ermənistanın baş naziri Nikol Paşinyanla Vanetsyanın danışıqlarına gizli dinləmə tətbiq edildi. İndi isə o əyninə Ermənistanın maraqları uğrunda mübarizə aparan rob geyinib, gülüncdür, Allah haqqı".

### "Xalq Paşinyanı təhqir etsə də, qəlbində anlayır ki, Moskvanın Bakı və Ankara ilə, hətta Brüssellə maraqlarının üst-üstə düşdüyü bir vaxtda, yaranmış geosiyasi situasiyada bizim üçün geriyə oynamaq və ya geri qaytarmaq variantı yoxdur"

"Bəs faktlar nəyi deyir? Bizi nəyə görə müqavimət aksiyalarına çağırırlar? Xalqın nəyinsə xətrinə birləşməsi bu qədərmi vacibdir? Əlbəttə ki, yox. Müxalifət bizə nə vəd edir? Situasiyadan çıxmaq üçün bizə hansı çıxış yolunu göstərməyə hazırdır? Bəli, koçaryançılar və serjikçilər ağızları köpüklənə-köpüklənə "artsaxda" mənasız fəaliyyətləri, bizim məğlubiyyəti təsdiq edən üçtərəfli bəyanatı və hərbi əməliyyatların dayanmasını tənqid edirlər. Ancaq onlar açıq şəkildə demirlər ki, bəyanatdan imtina etmək lazımdır. Bilirlər axı, orada Putinin imzası var. Bəs onlar nəyi təklif edir və söz verirlər? Onlar hesab edirlər ki, Rusiya ilə münasibətləri Paşinyandan yaxşı qura bilərlər", deyə yazan Arşakyan iddia edir ki, sən demə ermənilərin Qarabağdakı məğlubiyyətlərinin səbəbkarı məhz Rusiyadır və ardınca müxalifətə sual ünvanlayır - müxaifət "itirilmiş" (Azərbaycan ordusu tərəfindən azad olunmuş!) əraziləri qaytarmağa söz verirsə, bunu necə edəcəklər?

SİTAT: "Bunu da bizə demirlər. Ona görə də xalq Paşinyanı təhqir etsə də, qəlbində anlayır ki, Moskvanın Bakı və Ankara ilə, hətta Brüssellə maraqlarının üst-üstə düşdüyü bir vaxtda yaranmış geosiyasi situasiyada bizim üçün geriyə oynamaq və ya geri qaytarmaq variantı yoxdur. Beləliklə, nə qədər acı olsa da, pisin-pisindənsə pisin ən yaxşısını görməyi qəbul etməkdən başqa çarə də yoxdur".

**Rövşən RƏSULOV**

# “Şuşada keçiriləcək Dünya Azərbaycanlılarının V qurultayı birliyimizi nümayiş etdirəcək”



***“Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra diqqət göstərdiyi əsas məsələlərdən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması, dünyaya həqiqətlərimizin olduğu kimi çatdırılması oldu.***

Ümummilli Lider müstəqillik yolunda ilk addımlarını atan dövlətin qarşısında duran vəzifələri açıqlayarkən ilk olaraq ölkənin beynəlxalq aləmdə özünü təsdiqini və varlığının təqdimatını mühüm amil kimi qarşıya qoydu. Diasporu hər bir dövlətin xaricdəki varlığı kimi dəyərləndirərək dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızı vahid ideya-azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməyə çağıran ulu öndər Heydər Əliyev bu birliyin, həmrəyliyin möhkəmləndirilməsi işinə hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə nail olmuşdur. Belə ki, 1991-ci il dekabrın 16-da Ümummilli Liderin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ”31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərar qəbul olunmuşdur. Həmin sessiyadakı çıxışında ulu öndər Heydər Əliyev qərarın tarixi-siyasi əhəmiyyətini vurğulayaraq bildirmişdi ki, Dünya Azərbaycan Türklərinin Milli Həmrəylik və Birlik Günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük siyasi əhəmiyyətli qərarın qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addım oldu. Böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu qərar məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür.

Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi istiqamətində atılmış ilk addım olan həmin bayram sonrakı dövrlərdə bu sahədə həyata keçirilən tədbirlərin daha da kütləvi xarakter almasında, xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynamışdır. Həmin tarixdən 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur”.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın digər sahələrdə olduğu kimi, diplomatiya sahəsində də uğursuzluqlarının təməlinə ölkəmiz haqqında məlumatsızlıq dayanırdı: ”Ermeni yalanlarının ayaq tutub yeridiyi zamanlarda ölkəmizə qarşı qərəzli təbliğatlar geniş vüsət alır, Azərbaycan bütün dünyaya işğala məruz qalan deyil, işğalçı dövlət kimi təqdim edilirdi. Məhz bu yalan təbliğatın nəticəsi olaraq 1992-ci ildə ABŞ Konqresi ”Azadlığı Müdafiə Aktı”na ədalətsiz 907-ci düzəlişin əlavə edilməsi ilə bağlı qərar qəbul etmişdir.




Bu qərar o ölkələrə tətbiq olunurdu ki, onlar işğalçılıq siyasəti həyata keçirir, digər dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış edirdilər. Ermənilərin və erməni diasporunun ölkəmizə qarşı belə bir ədalətsiz qərarın tətbiqinə nail olmaqda məqsədi Azərbaycanı iqtisadi cəhətdən zəiflətmək və asılı vəziyyətə salmaq idi. Amma Azərbaycan bu qərarın tətbiqi şəraitində yaşadığı 10 ilə yaxın dövrdə iqtisadi cəhətdən nəinki zəiflədi, əksinə dayanıqlı inkişafı ilə dünyanın diqqətində oldu. 2001-ci il 11 sentyabr tarixində ABŞ-da baş verən terror aktından sonra Birləşmiş Ştatlar hökumətinin xarici siyasətində dəyişikliklərə yol açıldı. Belə ki, ABŞ rəhbərliyi bu qərarın ədalətsiz olduğunu təsdiqləyərək onun fəaliyyətinin bir illik dondurulması barədə qərar qəbul etdi. Həmin vaxtdan bu günədək qərarın dondurulması hər il yenidən təsdiqlənsə də onun birdəfəlik ləğvi hələ də həllini gözləyir.”

YAP Xətai rayon təşkilatının sədri bu fakta diqqəti yönəldərək vurğulayıb ki, Azərbaycan haqqında məlumatsızlıq fonunda dünyanın ikili standartlara əsaslanan siyasətinin davamlı şəkildə uğursuzluqlara, problemlərə yol açdığı məlum olaylardandır: ”Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə müstəqil Azərbaycanda hakimiyyətə qayıtdığı ilk günlərdən dünya azərbaycanlılarına bu çağırışı etdi ki, Azərbaycanın müstəqilliyini, suverenliyini daimi etmək üçün harada yaşamasından asılı olmayaraq bütün soydaşlarımızın bir amal ətrafında sıx birləşməsi vacibdir. Bütün dünya azərbaycanlılarının bir Vətəni var-Azərbaycan!”

”Dünya azərbaycanlılarının təşkilatlanması, diaspor quruculuğu istiqamətində atılan addımlar davamlılığı ilə diqqət çəkdi” söyləyən Vüqar Rəhimzadə bildirib ki, dünyanın müxtəlif ölkələrində Azərbaycan cəmiyyətlərinin, mərkəzlərinin yaradılmasına nail olan ulu öndər Heydər Əliyev onların vahid mərkəzdən idarə olunması üçün Dünya Azərbaycanlılarının qurultayının keçirilməsi təşəbbüsü ilə çıxış etdi: ”Ümummilli Liderin 23 may 2001-ci il tarixli Sərəncamına əsasən, 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının birinci qurultayı keçirildi. Ulu öndər Heydər Əliyevin qurultayda proqram xarakterli nitqi dünya azərbaycanlılarının təşkilatlanmasında, onların vahid ideya ətrafında birləşməsində əhəmiyyətli rol oynadı. Ümummilli Liderin Sərəncamı əsasında Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması da bu istiqamətdə görüləcək işlərin əsası kimi dəyərləndirildi.”

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, sonrakı illərdə hər beş ildən bir dünya azərbaycanlılarının qurultaylarının ənənəvi olaraq keçirilməsi diaspor quruculuğu sahəsində görülən işlərin təqdimatı və qarşıdakı dövrdə həyata keçiriləcək tədbirlərin anonsu kimi dəyərləndirildi: ”Belə ki, 2006-cı il martın 16-da II, 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də IV qurultayların keçirilməsi də deyilənlərin təsdiqidir. Hər bir qurultayda Azərbaycanın keçdiyi inkişaf yolunun uğurlarından, qarşıda duran vəzifələrdən ətraflı söhbət açan, Azərbaycan həqiqətlərinin, o cümlədən bu gün artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında diaspor təşkilatlarının rolundan geniş bəhs edən dövlət başçısı İlham Əliyev bu fikri xüsusi qeyd edirdi ki, günbəgün güclənən, qüdrətlənən Azərbaycan hər birimizin qürur mənbəyidir.”

Vüqar Rəhimzadə bu mühüm məqamı da xüsusi qeyd edib ki, dövlətimiz həqiqətlərimizin təbliğində səfirliklərin də üzərinə mühüm vəzifələr düşdüyünü önə çəkərək onların say tərkiblərinin artırılmasına, eyni zamanda, diaspor təşkilatları ilə fəaliyyətlərini əlaqələndirmələrinə xüsusi diqqət göstərir: ”Son 4 ildə 31 ölkəni əhatə edən 14 Koordinasiya S?urasının, 12 ölkədə 18 Azərbaycan Evinin yaradılması (Tallin, Varşava, Budapest, Brüssel, Zalsburq, Barselona, Köln, Berlin, Münhen, Kiyev, Odessa, Ankara, İğdır, Qahirə, Saloniki, Tbilisi, Marneuli və Qardabani şəhərləri) təqdirəlayiqdir.”

YAP Xətai rayon təşkilatının sədri Azərbaycan həqiqətlərinin təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, Fondun vitse-prezidenti Leyla Əliyevanın xidmətlərindən geniş bəhs edib. Bildirib ki, təkcə bir faktı qeyd etmək kifayətdir ki, Mehriban xanım Əliyevanın təs?əbbu?su? ilə xaricdəki azyaşlı uşaqlar üçün ”Qarabag?” Azərbaycan məktəbləri təsis olunub və bu gün həmin məktəblərdə 250-dən artıq azərbaycanlı uşaq ana dilində təhsil alır.

”Azərbaycan diasporunun gücü bu gün dünyada etiraf edilir. Son illərin hadisələrinə diqqət yetirsək açıq-aydın görərik ki, erməni yalanları ayaq tutsa da dövlətimizin qətiyyətli mövqeyi, düşünülmüş siyasəti, Azərbaycan diasporunun gücü, qüdrəti sayəsində yerimək imkanında deyil. Dünya ermənilərin əsl simasını gördü. Tarixi Zəfərimizdə Azərbaycan Ordusunun misilsiz rəşadət payında möhkəm hüquqi bazanın rolu böyükdür. Onu da xüsusi vurğulamalıyıq ki, Azərbaycanın beynəlxalq aləmdə tanıdılmasında müstəsna rolu olan diasporumuz həqiqətlərimizin təbliğinə böyük töhfələr verib. Belə ki, diaspor təşkilatlarımızın Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində fəaliyyəti, Vətən müharibəsi dövründə onların du?nyanın 30-dan c?ox ölkəsində 200-dək aksiya kec?irmələri, bu aksiyalarda u?mumilikdə 25 mindən c?ox soydas?ımızın və dost xalqların nümayəndələrinin is?tirakı, 50-dən c?ox o?lkədə fəaliyyət go?stərən 300-ə yaxın diaspor təs?kilatının mu?xtəlif o?lkələrin do?vlət və ho?kumət rəhbərlərinə, parlamentlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər ünvanlamaları təqdirəlayiqdir. Tarixi Zəfərimiz dünyanın bütün ölkələrində yüksək səviyyədə qeyd olunaraq ədalətin zəfər çaldığı bir daha beynəlxalq ictimaiyyətə bəyan edildi”,-deyə Vüqar Rəhimzadə bildirib.

YAP Xətai rayon təşkilatının sədri Dünya Azərbaycanlılarının V qurultayının torpaqlarımızın düşməndən təmizləndiyi dövrə təsadüf etməsini önə çəkərək bu tədbirin Şuşada keçirilməsinin tarixi əhəmiyyəti və rəmzi mənası olduğunu diqqətə çatdırıb: ”Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti, liderliyi, milli maraqlarımızı qətiyyətlə müdafiə etməsi, düşünülmüş və qətiyyətli siyasəti artıq hər birimizin qürur mənbəyi olan bu reallığı mümkün etdi. Qarabağın tacı, Türk dünyasının mədəniyyət paytaxtı Şuşada bir araya gələcək həmvətənlərimiz bu məkandan birliyimizi, həmrəyliyimizi dünyaya bəyan edəcək, tarixi Zəfərimizin rəmzi olan dəmir yumruğun gücümüzün təqdimatı olduğunu bir daha nümayiş etdirəcəklər.

Postmünaqişə dövrünün reallıqlarının təbliğində diasporumuzun da üzərinə böyük məsuliyyət düşür. Onlar bu reallıqların dünyada qəbulu istiqamətində fəaliyyətlərini genişləndirməklə yanaşı, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə öz töhfələrini verməklə Böyük Qayıdışa dəstəklərini ifadə edəcəklər. Artıq Dünya Azərbaycanlılarının V qurultayının keçirilməsi ilə bağlı hazırlıq işlərinin yekunlaşmaq üzrə olduğu bildirilir. Tədbirdə 65 ölkədən 400 nəfərə yaxın diaspor nümayəndəsinin iştirakı gözlənilir. Dünya Azərbaycanlılarının V qurultayı diasporumuzun Qarabağın işğaldan azad edilməsindən sonra ilk böyük görüşü olacaq. Sözsüz ki, dövlət başçısı İlham Əliyev qarşıdakı qurultayda özünün proqram xarakterli nitqində dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən diaspor nümayəndələrinə öz tapşırıqlarını verəcək, hədəfləri açıqlayacaq.

Hər bir tədbir mahiyyəti baxımından xüsusi əhəmiyyət kəsb edir. Hazırkı mərhələdə Azərbaycanla bağlı keçirilən hər bir tədbir, həmçinin ölkəmizin iştirak etdiyi beynəlxalq səviyyəli konfranslar qürurvericidir. Çünki bu tədbirlərə ölkəmiz, dövlət başçısı İlham Əliyev qalib dövlətin və qalib ölkənin qalib Prezidenti kimi qatılır. Dünya Azərbaycanlılarının V qurultayında Müzəffər Ali Baş Komandan, qalib Sərkərdə kimi çıxış edəcək cənab İlham Əliyev tarixi Zəfərimizdən böyük qürurla bəhs edəcək. Bu gün bir daha qeyd edirik ki, güclü, qüdrətli, eyni zamanda, qalib Azərbaycan harada yaşamasından asılı olmayaraq hər birimizin qürur mənbəyidir”.

# "Bütün bunlar ölkəmizin uğurlu siyasəti nəticəsində baş verib"



*Siyasi ekspert Elşad Həsənovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:*

**- Brüssel görüşündən sonra regionda vəziyyət necədir? Bu görüş nə ilə yadda qaldı?**

- Brüssel görüşü Azərbaycanın diqtəsi ilə keçdi. Çünki bizim uzun illərdən bəri apardığımız balanslaşdırılmış xarici siyasətimiz öz müsbət nəticələrini verməyə başladı. Aprelin 6-da Brüsseldə keçirilən görüşdə Azərbaycanın təqdim etdiyi 5 maddəlik prinsiplər qəbul olundu. Çünki bunlar obyektiv, reallığı əks etdirən məsələlərdir və Ermənistan da bu maddələri qəbul etməyə məcbur oldu. Bu Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə baş verdi. Keçirilən üçtərəfli görüşü Azərbaycanın siyasi qələbəsi saymaq olar. Bu görüşdən sonra cənab Prezident aprelin 12-də 1-ci rübün yekunlarına həsr olunmuş müşavirədəki çıxışında qeyd etdi ki, Brüssel görüşündə "Dağlıq Qarabağ" ifadəsi işlədilməyib. Eyni zamanda münaqişə söhbəti aradan qaldırılmışdır. Çünki biz 44 günlük müharibə zamanı özümüz qələbə qazandıq. Halbuki bunu beynəlxalq təşkilatlar etməliyidi. Azərbaycan öz uğurlu daxili və xarici siyasəti ilə, ordusunun qəhrəmanlığı ilə münaqişəni həll etdi. "Dağlıq Qarabağ" leksikonu lüğətimizdən çıxarılmışdır. Buna görə Ermənistanda müxalif qüvvələr Paşinyana qarşı mitinqlər, tədbirlər keçirməyə başladılar. Müxalif qrupun lideri bir qurup deputatla Qarabağa gəlmək istədilər. Ancaq Azərbaycanın qətiyyətli tədbiri nəticəsində onlar Qarabağa buraxılmadılar. İlk dəfə idi ki, belə hal baş vermişdir. Bütün bunlar ölkəmizin uğurlu siyasəti nəticəsində baş verib.

**- Brüssel görüşündən əvvəl Ermənistanda bu görüşə qarşı mitinqlər keçirilmişdir. Bu mitinqlər nəyi ifadə edir?**

- Ermənistanda olan hadisələrə ikili baxışla baqmaq lazımdır. Birincisi Ermənistanda qərb yönümlü hakimiyyət var. Reallığı başa düşən, erməni xalqının gələcəyini düşünən və öz siyasi marağını güdən müxalif qüvvələr var. Biz onların hakimiyyətini gördük. Onlar hər zaman müharibəyə çağırış etmişlər. Apardıqları müharibələr də özlərinin yox digər dövlətlərin hesabına olmuşdur. Bu hamımıza aydındır. Hamı bilir ki, Ermənistanla apardığımız müharibədə Ermənistan yox onun havadarlarının köməyi ilə qələbə qazanıblar. Məhz Brüssel görüşündən sonra Paşinyanın çıxışı göstərir ki, Ermənistan sülh şəraitində yaşamalıdır. Beynəlxalq təşkilatlar da tələb edir ki, Azərbaycanla sülh şəraitində yaşansın. Ermənistan rəhbərliyi başa düşür ki, sülh müqaviləsi bağlansa iqtisadi cəhətdən inkişaf edəcəklər. Hətta bu Ermənistanın sonuncu parlament iclasında vurğulanıb. Çünki onlar dünyada olan yaşayışı görürlər.

**-Paşinyan dəfələrlə çıxışlarında bildirib ki, biz Azərbaycanla avtomobil yollarının açılmasında maraqlıyıq,kommunikasiyaların bərpasında maraqlıyıq. Ermənistanın səmimiyyəti nə dərəcədə inanmaq olar?**

- Paşinyan atdığı addımlarda səmimidir. Onun məqsədi erməni xalqını ağ günə çıxarmaqdır. Dövlətini səfalətdən qurtarmaqdır və onun partiya yoldaşları da bunu sonuncu parlamet çıxışlarında göstərdilər. Əhalinin əksəriyyətinin sülh istədiyini bildirdilər. Çünki başqa yol yoxdur. Biz artıq öz gücümüzlə, qardaş Türkiyənin müttəfiqliyi ilə qələbə qazanmışıq. Artıq biz onları sülhə məcbur edirik. Bu gün onlar sülh imzalamasalar bu onların ziyanına olacaq. Hər iki dövlətin Xarici İşlər nazirlərinin görüşündə sülh sazişinin hazırlanması ilə bağlı qərar verilib.

**- Fransanda yeni pezident seçilərsə bunun Azərbaycan və Ermənistana təsiri necə olacaq?**

- Fransada seçkilər zamanı namizədlər hər zaman erməni diasporasının köməyinə arxalanıb, onlara vədlər verirlər. Ancaq dövlətin öz siyasəti də var. Bundan əlavə də beynəlxalq ictimaiyyət var. Onların Ermənistana edə biləcəyi dəstək siyasi dəstəkdir. Makron nə qədər çalışsa da heç bir şeyi dəyişə bilmədi. Ermənilərə verdiyi vədləri demək olar ki, yerinə yetirdi. Güman edirəm ki, bu seçkilərdə Makron yenidən qələbə çalacaq və o öz siyasətini davam etdirəcək. Son dövrdə Makronun siyasətinə baxdıqda görürük ki, o Ermənistanın Azərbaycan və Türkiyə ilə sülh bağlamasının qaçılmaz olduğunu anlayır. Ermənistanın gələcəkdə bir ölkə kimi var olmasını istəyirlərsə bu sülh imzalanmalıdır. Onların da təsiri ancaq buna dəstək olmaq ola bilər.

**- Ermənistanda olan separatçı qüvvələri silahlandırmağın məqsədi nədir? Yenidən müharibə istəyirlər?**

- Rus revanşistlərinin belə siyasətləri var. Marağı olduğu ölkələrdə həmişə qaynar nöqtələr yaradırlar və onları guya sakitləşdirməyə çalışırlar. Sərhəd hissələrə yerləşdirilən rus sülhməramlıları Ermənistandakı revanşistləri təlimatlandırırlar ki, gələcəkdə onların məqsədinə xidmət etsinlər. Bu gün üçtərəfli bəyannamədə olan bir çox şərtlərə əməl edilsədə əsas müddəalara əməl okunmayıb. Silahlı dəstələr Azərbaycan ərazisindən tam çıxarılmayıb. Güman edirəm ki, sərhədlərin delimitasiyası və demarkasiyası problemi həll edildikdən sonra hər şey düzələcək.

***Abutel İlhamqızı***

# Biabırçılıq

*FELYETON*



***Rəhmətlik atalarımız yerində deyiblər ki, utanmasan oynamağa nə var ki... Həqiqətən də utanmaq məfhumu böyük bir dəyəri ifadə edir. O dəyəri ki, əsrlərlə bu xalqın mentalitetinin kökündə dayanıb, zaman-zaman nəsillərdən-nəsillərə ötürülüb. Utanmaqda, utancaqlıqda gizli bir nüans var ki, insanlığa məxsus bütün xarakterlərin tacıdır. Allah-təala heç bir bəndəsini bu tacdan məhrum etməsin.***

Lakin təəssüf ki, cəmiyyətimizdə bu dəruni hissdən məhrum olanlar az deyil. Çox təəssüflər... Xüsusilə əksər gənclərimizin geyimlərində, davranış və hərəkətlərində hiss edilən bu mənfi xarakterə görə mən heç də onları qınamıram. Qınanılası bizlərik-onların valideynləri. Biz nə etdik ki, bu günlərə gəlib çıxdıq? Nə etdik ki, övladlarımızı bu cür yetişdirdik? Harada başımız qarışdı, harada adət-ənənələrimizi, mentalitetimizi unutduq ki, bu günlərə qaldıq? Bəlkə özümüz də həyatın o xoşagəlməz axarına qoşulub övladlarımıza pis nümunə olduq. Bax nə idi görəsən işimizin adı ki, uşaqlarımızla məşğul ola bilmədik, onların bu cür yetişmə səbəbləri olduq.

Bu gün küçədə bir oğlan gördüm, 20-23 yaşlarında olardı. Hündürboy, yaraşıqlı idi, sport stilində də geyinmişdi, lakin corablarının biri göy, digəri qırmızı rəngdə idi. Düşündüm ki, səhər-səhər evdə qaranlıq olub, ayırd edə bilməyib. Bir də düşündüm ki, bəlkə bu dəbdir, mənim xəbərim yoxdur. Lakin tez də fikrimdən vaz keçdim. Nədənsə özümün özümə gülməyim gəldi. Sırağagünsə başqa bir gənc oğlan gördüm. Boyun-boğazı alnınadək döymə idi. Saçlarında ara-sıra göy rəngdə boyalar vardı. Onun barəsində də xeyli düşündüm, dedim görən bədəninə bu qədər əziyyəti necə verib, o ağrılara necə dözüb? Bu döymə onu düşündüyünün əksi olaraq daha da çirkli, baxımsız göstərir axı.

Metroda da tez-tez gənc qızlarla qarşılaşıram, budlarını bayırda qoyan iri yarıqlı şalvarda, bellərindən çox yuxarı köynəkdə, az aşağı ətəkdə... Çox vaxt da yanlarındakı qız, oğlanlarla yüksək səslə danışır, deyib-gülürlər. Vallah belə övladları evindən çıxaranları dəfələrlə dəsmal götürüb gəlib ağlamağa səsləyirəm, lakin səsimə səs verən olmur ki, olmur. Həqiqətən biabırçılıqdır...

Bu dəfə deyəsən mətləbdən bir az yox, çox uzaqlaşdım. Lakin elə söhbətimin mətləbini də o ağılda, dərrakədə olan gənclərimiz təşkil edir. Ona görə üzürlü sayıla bilərəm.

Günlərdir içimi yeyən bir qurda çevrilib o məşhur bloqerin Bakıya gəlməsi və bizim gənclərimizdən istifadə edib özünü reklam etməsi. Ha dedim ki, əşi yazmayım, onlardan onsuz da bundan başqa gözləntilərim olmayacaqdı. Amma vallah, yazmamaq olmur. Çünki bəzi məsələlər var ki, ya gərək yazasan, ya da gərək bağrın çatlaya, öləsən.

Elə ölməmək üçün də üç gün öncəki biabırçılıqdan bəhs etmək istədim: gənclərimizin müftə "İphone" sevdasından. Məşhur bloqer Hüseyn Həsənovla görüşə yox, telefon qazanmağa toplaşan gənclərimizin "Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım" amalından. Yenə də çox təəssüflər olsun. Seyr etdikcə utanan, xəcalət çəkənlərdən oldum. O səs-küy, qışqırıqlar, kimlərinsə bu səs-küyü yatırmaq istərkən gəncləri təhqir etməsi, qapalı məkanda pandemiya qaydalarının pozulması bir kənarda qalsın, xüsusilə qürur məfhumunun, dəyərinin ərşə qalxdığı bu ortam ürəyimi sızlatdı. Çoxları güldü, bu görüntülərdən xoşhal oldu, əyləndi. Lakin əslində, bu görüntülərə kütləvi ağlamaqdan başqa heç bir reaksiya olmamalıydı.

Bu görüntülərin adı nə toplaşmaq, nə məşhur bloqerə olan məhəbbət, nə hədiyyə qazanmaq və sair deyildi. Biabırçılıqdı, əsl biabırçılıq. Nə yaxşı olardı ki, oradakı gənclər əgər ağılları kəsərdisə, sonradan o görüntüləri izləyərdilər. Çox ümidvaram ki, onların arasında bir az da olsa, utanan olarsa, onu tərbiyə edib cəmiyyətə qaytarmaq olar. Yox, əgər bu görüntüləri izləyərkən utanc hissi keçirən olmasa, deməli, batdıq. Daha nələr, nələr gözləyir bizi. Demək ki, bu gənclər həyatlarına belə də davam edəcəklər: nə edək ki, əmək sərf etmədən nələrsə qazanaq. Təhqir olunaq, qürurumuzdan keçək, lakin zəhmət çəkmədən ehtiyacımızı ödəyək. Yazıqlar olsun. Sizlərin gələcəyiniz gözlərim önündə canlanarkən cəmiyyətimizə acıyıram. Hansı ki, bu cəmiyyətdə halallıq amalı ilə yaşayan, qürurunu telefon nədir, övladının günlərlə ac qalmasına satmayan, çörəyini qabarlı əlləri ilə qazanan, alnıaçıq gənclər də var. Belə gənclərin valideynləri qarşısıda baş əyirik. Sizin kimi gənclər isə valideynlərinizin başını həmişə kimlərinsə qarşısında aşağı edəcəksiniz. Çox təəssüflər...

***Mətanət MƏMMƏDOVA***

# "Əməkdaşlıq hər iki tərəf üçün faydalı olacaq"



"Qırğızıstan Prezidenti Sadır Japarovun Azərbaycana səfəri ikitərəfli münasibətlərin inkişafı baxımından olduqca böyük əhəmiyyət kəsb edir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov bildirib. Onun sözlərinə görə, bu görüş Sadır Japarovun prezident vəzifəsinə seçildiyi tarixdən etibarən Azərbaycana ilk səfəridir: "Artıq bir sıra görüşlər keçirilib. Ölkə başçısı İlham Əliyevlə ikitərəfli görüşlər, eyni zamanda genişləndirilmiş şəkildə tədbirlər keçirilib. Bir sıra sənədlər imzalanıb. Həmçinin hər iki dövlətin prezidenti mətbuat qarşısında çıxış ediblər. Ümumiyyətlə Azərbaycan dövləti ilə Qırğızıstan dövləti arasında çox böyük tarixi köklərə əsaslanan münasibətlər, əlaqələr mövcuddur. Bildiyiniz kimi gələn il Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq. Bu baxımdan da bu səfər olduqca böyük əhəmiyyət kəsb edir. Xüsusilə iki ölkə arasında imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannaməni qeyd etmək istərdim ki, bu da bütün sahələrdə həyata keçirilən əməkdaşlığın yüksək xətlə inkişaf etdirilməsindən xəbər verir. Düşünürəm ki, növbəti illərdə biz bu sənədin icrası nəticəsində əlaqələrimizin daha da inkişaf etməsinin, eyni zamanda ölkələrimizin mövqelərinin bir-birinə daha yaxın olmasının canlı şahidi olacağıq. Eyni zamanda bir çox sahələr üzrə əməkdaşlıq həyata keçirilir və imzalanmış sənədlər də bundan xəbər verir. Burada iqtisadi, nəqliyyat, təhsil, səhiyyə və s. sahələrin inkişafı istiqamətində tədbirlər həyata keçirilir. Düşünürəm ki, bu cür hüquqi bazanın yaradılması ikitərəfli əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağından xəbər verir".

***Abutel İlhamqızı***

# "Buradan min atlı keçdi" - qalibiyyət simvolunun təcəssümü!

*Yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında mötəbər yer tutan görkəmli ədib və teatr xadimi Hidayət Orucov ömrünün hər anını xalq və vətən yolunda xidmətdə bulunmuş böyük ziyalı kimi tanınır. Ləyaqətli insan ömrü yaşayan, bu ömrün zamandan-zamana təsdiqi və təntənəsini yaratdığı əsərlərində və öz həyat kredosunda əks etdirən Hidayətin pyeslərinin səhnə təcəssümü hər zaman maraqla qarşılanmışdır.*




Aprelin 19-da Səməd Vurğun adına Akademik Dövlət Rus Dram Teatrında "Buradan min atlı keçdi" iki hissəli tarixi-xronoloji dramı onun yaradıcılığını izləyən pərəstişkarları tərəfindən böyük məhəbbətlə izləndi.

Vaxtilə İrəvanda yaşayarkən on altı il İrəvan Azərbaycan Dram Teatrına rəhbərlik etmiş Hidayət bu teatrın doğma müəllifi hesab olunur. Elə bu səbəbdəndir ki, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcı kollektivi şair-dramaturq Hidayətin "Burdan min atlı keçdi" iki hissəli tarixi-xronoloji dramını zaman-zaman, böyük şərəflə teatrsevərlərə təqdim edir.

Premyerası Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının (2 dekabr 2014-cü il) və Azərbaycan Dövlət Musiqili Teatrının səhnələrində (8 dekabr 2014-cü il) baş tutan tamaşa XX əsrin sonlarında Qafqazda münaqişələrin alovlanması məqsədilə gizli siyasət yürüdənlərin əməllərinə qarşı Ulu Öndər Heydər Əliyevin kəskin və barışmaz mövqeyini, həmçinin qərbi azərbaycanlıların erməni şovinistləri və ekstremistləri ilə gərgin mübarizəsini əks etdirir.

Tamaşadakı hadisələr 1968-ci ildən bu günümüzə qədərki bir dövrü əhatə edir. Əsərdə tarixən əzəli türk torpaqları olmuş Qərbi Azərbaycanda azəri türklərinin yaşadığı ictimai-siyasi şərait, ədəbi-mədəni mühit, İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəaliyyəti, bütövlükdə azərbaycanlıların on illər boyu məkrli erməni siyasətinə qarşı apardıqları mübarizə qələmə alınıb.




Ömrünün böyük bir hissəsini o torpaqlarda yaşamış dramaturq "Burdan min atli keçdi" dramında (məlumat üçün qeyd edək ki, əsər eyni adli roman əsasında səhnələşdirilib) şəxsən özünün gördüyü, iştirakçısı olduğu hadisələri, erməni irticasına qarşı mətanətlə döyüşən, mübarizə aparan vətən oğullarının rəşadət və dəyanətini əks etdirən səhnələri ustalıqla əks etdirib. "Üz tutaq tarixin dərin qatlarına. Üz tutaq İrəvan dediyimiz o ulu torpaqlara. O zamanlar ki, hələ sovetin bayrağı erməni başı üzərindəydi. Hələ erməni şovinizmi yenicə ayaq açırdı. Ancaq bizim üçün vacib olan o ulu torpaqlarda yaşayan həmvətənlərimizin erməni şovinistlərinə qarşı apardıqları intellekt mübarizəsidir..." söyləyən müəllif bu mübarizənin ön cərgəsində isə Azərbaycan xalqının Böyük Oğlu Heydər Əliyevin dayandığına diqqət yönəldir.

Dövlət sifarişilə hazırlanan tamaşaya H.Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının baş rejissoru, xalq artisti Firudin Məhərrəmov quruluş verib. Rejissorun verdiyi mizanlar çox dəqiqliklə əsərin ideya məzmununun açılmasına yönəldilib. Rejissor dəst-xətti, rejissor düşüncəsi, ideyası tamaşanın hər bir nöqtəsində, aktyor oyununun bütün məqamlarında özünü aydın hiss etdirir. Onu da deyək ki, səhnə əsərində İrəvan, Gənc Tamaşaçılar, Şuşa və Sumqayıt teatrlarının aktyorları yaddaqalan obrazlar yaradırlar. Belə fərqli amplualı aktyor ansamblı ilə bir səhnəni paylaşmaq özü də sənətkar ustalığının və peşəkarlığının təsdiqidir.

Əsərin baş qəhrəmanı Heydər Əliyev obrazını əməkdar mədəniyyət işçisi, Prezident mükafatçısı, İrəvan teatrının direktoru, teatr və kinoda, bədii seriallarda oynadığı neçə-neçə yaddaqalan obrazları ilə tamaşaçı sevgisi qazanmış İftixar Piriyev məharətlə yaradır. Onun ifasında Heydər Əliyev obrazı möhtəşəmliyi ilə qəlblərə yol açır. Aktyor Ulu Öndərin yerişini, duruşunu, maneralarını, əl hərəkətlərini, səsinin tembrini, nitqindəki pauzaları, mimikasını, jestlərin, sözlərin, ifadələrin deyilişindəki xırdalıqları çox incə və dəqiq ştrixlərlə təqdim edir. Bu, əlbəttə ki, aktyorun mükəmməl sənətkar peşəkarlığı ilə obrazın daxilinə nüfuzetmə bacarığının bariz nümunəsidir. Aktyor xalqımızın Ümummilli Lideri Heydər Əliyevin görünüşündə obrazın daxili yaşantılarına daha cox diqqət yetirir, nəbzi vətənin nəbzi ilə vuran dahini məhz həyatda olduğu kimi yarada bilir.



Qeyd edək ki, əsərdə müəllif Heydər Əliyev obrazını erməni şovinistləri ilə daha gərgin, daha təhlükəli mübarizələr fonunda, həm də hələ o illərdə xalqımız üçün başlanan və gələcəkdə torpaq iddiaları adı altında soyqırım fəlakətlərinin, əzəli yurd yerlərimizdən deportasiyaların o dəhşət və vəhşətlərini öz iti ağlı, uzaqgörən siyasəti ilə duymasını çox böyük dərinliklə çatdırır. Ulu Öndərin Koçinyanla telefon danışıqları, sonradan sərhəddə Qazax və Dilicanda görüşü, sonrakı illərdə Qarabağ uğrunda Koçinyanın gizli danışıqları, Suslovla olan dialoq səhnəsində onu müdrükcəsinə ifşa etməsi, Liqaçovla görüş səhnəsində rəqibin təhdidinə qarşı cəsarətli çıxışı, və ən nəhayət, finalda ərazi bütövlüyümüzün qorunması naminə xalqımıza verdiyi tövsiyələr müəllifin yüksək vətəndaşlıq məqsədindən xəbər verir. Tamaşada teatrlarımızın peşəkar aktyorları öz bacarıqlarını maksimum dərəcədə göstərirlər. Erməni millətçilərinin bədii obrazlarını ustalıqla yaradan əməkdar aktyor truppası bir-birini əvəz edən səhnələrdə bir neçə mürəkkəb obrazda öz istedadlarını nümayiş etdirirlər.

Tamaşanın uğurlu alınmasında bədii tərtibatın da özünəməxsus yeri vardır. Xüsusilə tamaşa öncəsi səhnədə asılmış İrəvan xəritəsi və qədim İrəvan bayrağı, həmçinin hadisələrin baş verdiyi məkanlar olduqca dinamik və funksional şəkildə təqdim edilir. Bu isə tamaşanı izləyənləri sanki hadisələrin içinə daxil edir, reallığı yaşadır.

Hidayət Orucovun "Buradan min atlı keçdi" əsəri daim gündəmdə qalan və milli dövlətçilik dəyərlərimizi təbliğ edən mühüm faktor kimi maraqla izlənilməkdə, böyük ovasiyalarla, anlşlaqlarla davam edir.

Onu da qeyd edək ki, artıq bu əsər öz tarixi aspektləri ilə paralel olaraq həm də Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı və siyasi varisi, Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi altında qazanılmış 44 günlük Zəfər yolunun mədəniyyət və yaradıcılıq sintezi kimi qiymətləndirilir və xüsusilə, işğaldan azad edilmiş torpaqlarımız üçün qalibiyyət simvolu rolunu oynayır.

***Rövşən RƏSULOV***

## "Gələcəkdə dini sahədə aparılan işlər daha da artacaq"



"Ölkə başçısı İlham Əliyev bu günlərdə Azərbaycan İlahiyyat İnstitutunun açılışında iştirak edib və orada yaradılan şəraitlə yaxından tanış olub". Bu fikirləri Milli Məclisin deputatı Cavanşir Paşazadə bildirib. Onun sözlərinə görə, yeni yaradılan binada müsəlmanlarla yanaşı, həmçinin bütün konfenssiyalar üçün təhsil almaq imkanı yaradılıb: "Azərbaycanın dinlə məşğul olan vətəndaşları təhsil almaq üçün xaricə üz tuturdular. Artıq buna ehtiyac yoxdur. İlahiyyat İnstitutunda təhsil alaraq bu sahədə özlərini inkişaf etdirə bilərlər. Cənab Prezident bu məsələlərə böyük diqqət ayırır. İlahiyyat İnstitutunda geniş kitabxanalar, böyük sinif otaqları, qadınlar və kişilər üçün namaz otaqları, dəstəmaz və mətbəə otaqları yaradılmışdır. Bundan əlavə bir çox ictimai fənlərin kafedraları fəaliyyət göstərəcək. Bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanması ilə bağlı ciddi tədbirlər həyata keçirilib. Elmi işlərin görülməsi üçün böyük şərait yaradılıb. Bu cür tədbirlərin həyata keçirilməsi təbii ki, təqdirəlayiqdir. Bütün sahələrdə olduğu kimi dində də bu cür islahatların aparılması olduqca ürəkaçandır. Gələcəkdə xalqın dini elmə yiyələnməsinə böyük tövsiyyə verəcək. Düşünürəm ki, gələcəkdə dini sahədə aparılan işlər daha da artacaqdır".

***A.İlhamqızı***

TƏƏSSÜRAT+FOTOLAR

# Sənədli detektivin yeni çalarları

***"Ön söz", 29 fəsil və "Epiloq"dan ibarət olan bu kitabı sənədli siyasi detektiv roman da adlandırmaq olar. Bu yazıda sənədli detektivin imkanları, perspektivi nəzərdən keçiriləcək və bu tipli əsərlərin cəmiyyətimizə təsiri, tərbiyəvi mahiyyəti araşdırılacaq. Əsərdə romançılıq üslubu və ənənələri qorunduğundan oxunuş asanlaşır.***

**İsa Nəcəfov "Acı həqiqət"**
**"Qanun" nəşriyyatı 2020**




Əsər həyəcanlı, cidd xəbərlərin bədii şərhini ehtiva etdiyindən başlıqlar da bu şərhlərə xidmət edir.

"Azərbaycan naminə mübarizə" adlı birinci fəsildə Heydər Əliyevin Azərbaycanı parçalamağa yönəlmiş müxtəlif siyasi qüvvələrə xidmət etmək üçün yaradılmış "Talış-Muğan Respublikası", "Sadval", təyinatı dəyişdirilmiş "OMON" və s. kimi seperatçı qrupların mahiyyətini açan mübarizəsi bir fon olaraq verilir. Oxucu hiss edir ki, bu mübarizə heç də asan olmayacaqdır. "İntizarla gözlənilən gün", 1994-cü ilin 20 sentyabr tarixi gəlib çatır və "Gülüstan" sarayında "Əsrin müqaviləsi" adlı neft müqaviləsi imzalanır. Azərbaycana qarşı qısqanclıqların başlanğıcı həmin tarixdir və bu gün də davam edir. Belə şərh vermək hər müəllifə nəsib ola bilməz, bu, hadisələrin mahiyyətinə bələd bir adamın işidir və biz əsərdə bunu hər vaxt hiss edirik. Vəziyyətin gərgin olmasını, dövlət çevrilişinin ola biecəyini görən Prezidentin xalqa müraciətini o dövrü yaşayan bizim nəsil yaxşı xatırlayır. Bu hadisələrdən qurtarmaq üçün olan tədbirlər əsərin "Çağırış" fəslində detalları ilə verilmişdir.

- Fikrət, komandirə de ki, tapşırıq yerinə yetirildi, Afiyəddin Cəlilovu və sürücüsünü də qətlə yetirdik".

Burada dinməz-danışmaz bir hal şahidi var: VAZ-2108. Vaxtı gəldikcə bu hal şahidi də cinayətdə günahsız iştirakçı olacaqdır.

Açar vasitə belə başlanır. Burada romanın tam detektiv janra məxsusluğunun ekspoziyası vardır. Qara "Jiquli" OMON-çulara məxsus imiş.

Hamının susaraq qorxduğu bir vaxtda insanlar ümidlərini bir şəxsə bağlamışdılar.

Romançılıq ənənələrinə görə, süjet xətti bir neçə istiqamətdə davam edəndə maraqlı olur. Yazıçı, adətən, oxucunu intizarda qoyub, o bir xətti çözür və nəhayət, axırda bütün xətlər birləşir. Burada isə hadisələr həqiqətən bir bir-biri ilə bağlı inkişaf edir.

"Hesabat" fəslində öyrənirik ki, Nəriman İmranov işə gələndə "öyrənir" ki, "gecə istintaq təcridxanasından Arif Paşayev, Əlikram Hümbətov, Baba Nəzərli və Rəhim Qazıyev qaçıblar". 22 sentyabr 1994-cü il tarixli Prezident sərəcamı ilə Nəriman İmranov milli təhlükəsizlik naziri vəzifəsindən azad edilir.

Romanın "Prokurorluqda" fəslində göstərilir ki, Baş prokuror Eldar Həsənov, onun müavini isə İsa Nəcəfovdur. Elə bu andan başlayaraq romanda daim Baş prokurorun müxtəlif əyintiləri ilə rastlaşırıq. Maraqlıdır ki, romanda "xəyanətkar beşinci kolon" ifədəsi işlədilir. Biz bu ifadəni sonralar daha mötəbər instansiyalarda da eşidəcəyik. Baş prokuror təxminən 20-dən çox qəzetdə, ANS telekanalında İsa Nəcəfova qarşı ardı-arası kəsilməyən hücumlar təşkil etmişdi. Bu fikir romanın sonunda Prezidentin yanındakı müşavirədə mətbuata baxan şöbə müdirinin arayışı ilə də təsdiqini tapır. Burada əsərin tərbiyəvi gücü özünü bariz şəkildə göstərir..

"Kəsişən yollar" fəsli, artıq kriminogen vəziyyətin şərhidir. Bu zaman müəllif vaxtilə istintaqı aparılmış işlər -Əjdər Xanbabayevin, Şəmsi Rəhimovun və Afiyəddin Cəlilovun qətlə yetirilməsi ilə bağlı cinayət materiallarını diqqətə çatdırır."Kəsişən yollar" - fikir ayrılıqlarının başlanğıcıdır. Müəllif-təhkiyəçi istintaq materiallarını araşdırarkən "bir daha əmin olur ki, cinayət işinin istintaqı heç də obyektiv aparılmır". OMON-çuları az qala təmizə çıxarmaq Mahir Cavadovun göstərişi ilə baş vermişdir. Bundan sonra İsa Nəcəfov Şəmsi Rəhimov və Afiyəddin Cəlilovun qətlə yetirilməsi işini aydınlaşdırır. Diqqət çəkən məqamlardan biri budur ki, əsərdə MTN işçilərinin adları xidməti təlimata əsasən dəyişdirilmiş şəkildə verilir.

"Ölkədə kriminogen vəziyyət dəyişsə də, prokurorluqda, xüsusilə də Baş prokurorla birinci müavinin münasibətləri sönüb, yenidən püskürən palçıq vulkanına bənzəyirdi".

... İsa Nəcəfov Prezidentin qəbuluna gələrək Afiyəddin Cəlilovun qətli ilə bağlı məruzə edir. Və bundan sonra istintaq çətinlikləri başlayır. Belə ki, "hər iki şəxs - prokuror da ( İsa Nəcəfov), müstəntiq də (Əli) başa düşürdülər ki, cinayətin Dəyanət Kərimov tərəfindən törədilməsi aydın olsa da, o biri iştirakçılar müəyyən edilməyincə, o danışmayacaq".

Şəmsi Abdullayev Azərbaycana iki ildən sonra gəlsə də dolaşmış kələfin ucunu istintaqa verir. Məlum edir ki, Afiyəddin Cəlilovu öldürməkdən yayınmaq üçün özünü bıçaqlayır. Amma başqa cinayətlərdə əli olduğunu özü deyir. Beləliklə, bir cinayət o biri cinayətin kələfinin çözülməsinə şərait yaradır.

Kitabın bu hissəsi sırf detektivə xidmət edir.

Cinayət başqa bir cinayətin üstünü açır. Dəyanəti inandırırlar ki, taksi sürücüsünü necə öldürməsini etiraf nəzərə alınacaqdır. Və belə də olur. Dəyanət qəbirin yerini göstərir.(196, 198). Bu işdə şübhəli şəxs kimi onun arvadı Samirə Ələkbərova da dindirilir. (206) Samirəyə verilən suallar əsasında onun Dəyanətə məxsus maşınlardan biri də VAZ-2108 olduğu müəyyən edilir (!).

Bu, artıq, açardır!

Nəhayət, Dəyanət üçüncü şəxsin adını etiraf edir. "Şəmsi Abdullayev özünü bıçaqla vurandan sonra Rövşən Cavadov öz sürücüsü Səxavəti bizimlə göndərdi. Bu, istintaq qrupunun indiyədək əldə etmək üçün yorulmadan can atdığı son məqsəd idi". (250)

İstintaqlar yekunlaşır, fikir isə yekunlaşmır. Dəyanət bütün hadisələri təfsilatı ilə danışır. O biri cinayətlərini də etiraf edir. Cinayət işi yekunlaşır. İsa Nəcəfovun versiyası düz çıxır - Afiyəddin Cəlilovu məhz bu adamlar Rövşən Cavadovun göstərişi ilə qətlə yetirmişlər. Prezident hüquq-mühafizə işçiləri üçün keçirdiyi müşavirədə Eldar Həsənovun hərəkətlərini "xəyanət" kimi qiymətləndirir. Bu əsər yazılanda Eldar Həsənovun əməllərinə hüquqi qiymət verilməmişdi, rəhbərlik səviyyəsində qiymət verilmişdi. Üstündən bir müddət keçdi, xəyanət edən hüquqi qiymətini aldı.

Biz də bu fikirdəyik ki, siyasi-detektiv janra böyük töhfə verən bu sənədli əsər bir romandır, qızıl kitabdır. Çox asan dillə, anlaşıqlı, bədii ricətlərlə süslənmiş bir kitab. İllər keçdikcə bu kimi kitablar tarixə, ictimai-siyasi mühitə yol yoldaşlığı edəcək, ondan bir tarix kimi istifadə edəcəklər.

***Seyfəddin Eyvazov,***
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin dosenti, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi*

***Seyfeddineyvazov@mail.ru***

# Rusiya-Ukrayna qarşıdurması - bu xəmir hələ çoxmu su aparacaq?




**Qərbin və Rusiyanın açıq müstəvidəki qarşıdurmalarından yalnız bir qalib çıxmalıdır və bu qalib çıxana qədər təkcə Ukrayna deyil, bəşəriyyət itirəcək...**

Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fonunda cərəyan edən və bir-birini tez-tez dəyişən situasiyalar artıq dünyanın geosiyasi vəziyyətinə qlobal dəyişikliklər gətirib. Əvvəldən də bilindiyi kimi, yalnız Rusiya-Ukrayna deyil, bilavasitə Qərb-Rusiya qarşıdurması qarşıdurması kimi qəbul edilən mövcud müharibənin həm də bu qədər uzun müddət davam edəcəyi də inandırıcı görünmürdü.

Artıq indi amansız savaşın illərlə davam edəcəyi barədə dəhşətli proqnozlar irəli sürülür. Yeri gəlmişkən, əgər Kreml Krımın ilhaqından sonra Donetskin və Luqanskın Rusiyaya birləşdirilməsi planını da gerçəkləşdirəcəyini dolayısı ilə etiraf edirdisə, indi Ukraynanın paytaxtı Kiyevin, eləcə də Xarkovun, Xersonun və s. şəhərlərin də ələ keçiriləcəyi istisna olunmur. Əbəs deyil ki, bütün şəhərlər hər gün ardıcıl, sərasər raket, artilleriya zərbələrinə məruz qoyulur.







### Yeganə çəkinəcək nüvə silahıdır!

Ukraynanın prezidenti Vladimir Zelenski isə bu yaxınlarda bəyan etdi ki, ölkəsi bundan sonra 10 il Rusiya ilə müharibə aparmaq gücündədir. Onu da etiraf edək ki, Ukrayna həqiqətən də Qərbin Rusiya ilə qarşıdurmasında vasitə rolunu oynayır və Qərbin Ukrayna silahlı qüvvələrini müxtəlif növ silahlarla, texnikalarla təchiz etməsi də həmin reallığı sübut edir.

Fəqət, Ukraynanın NATO-ya üzvlüyü rədd edilirsə və həmin imtina Rusiya ilə daha dərin, yaxud birbaşa konfrontasiyaya getməməsi üçün tətbiq olunursa, demək Qərbin də Rusiyadan müəyyən çəkinəcəkləri üzə çıxır. Çəkinəcək olan isə nüvə silahıdır!

Əbəs deyil ki, Rusiyanın hərbi strukturlarında yer alan yüksək rütbəli zabitlər, generallar cameəsi də dəfələrlə müxtəlif vasitələrlə bəyan ediblər ki, NATO Rusiyaya qarşı açıq müharibəyə girişərsə qarşısında nüvə silahını görmüş olacaq. Amma nəzərə alsaq ki, ABŞ başda olmaqla NATO-ya üzv olan daha bir neçə ölkələrin nüvə silahları mövcuddur, bu zaman nüvə müharibəsinin dünyanın sonunu gətirməsi ehtimalı kifayət qədər yüksəlir.

### NATO Polşada təlimlər keçirir, Baltikyanı ölkələr Kalininqradı ələ keçirmək iddiasındadırlar

Maraqlı məqamlardan biri də NATO-nun son günlər Rusiya ilə sərhəddən cəmi 75 km aralıda yerləşən Polşa torpaqlarındakı poliqonlarda hərbi təlimlərə başlamasıdır. Əzələ nümayişi kimi də qiymətləndirilən bu təlimlərin əsas məqsədi Rusiyadan gələn təhlükələrin qarşısını almaq məqsədi daşıyır.

### Habelə, Polşa rəhbərliyinin hər an Rusiya ilə müharibəyə hazır olması barədə verdikləri bəyanatları mövcud vəziyyətin çərçivədən çıxmağa doğru getdiyini göstərir

Üstəlik, Baltikyanı ölkələrin - Latviyanın, Litvanın və Estoniyanın hərbi dairələri Rusiyanın ən qərbində yerləşən şəhəri - Kalininqradın ələ keçirilə bilməsi planlarının daim işlək vəziyyətdə olması barədə ciddi bəyanatlar verməleri də qeyd olunan fikirləri təsdiq edir. Buraya İsveçin və Finlyandiyanın da NATO-ya üzvlük barədə müraciət etmələri isə artıq Kremli düşündürməlidir. Beləliklə, NATO birbaşa olmasa da, müxtəlif vasitələrlə öz siqnallarını verməyə başlayıb...

### Əgər bütün dünya ölkələri Rusiyaya qarşı sanksiyalara qoşulsaydılar...

Daha bir amil - sanksiyalardır. Maraqlısı budur ki, dünyanın ən aparıcı istehsalat, qida, texnologiya, aqrar sənaye və s. şirkətləri artıq Rusiyadan gediblər və bütün bunlara baxmayaraq Rusiyanın tükənməyən hərbi-iqtisadi ehtiyatları artıq uzanmağa başlayan müharibədə öz sözünü deyir. Bəllidir ki, əgər bütün dünya ölkələri Rusiyaya qarşı sanksiyalara qoşulsaydılar bu zaman Kremlin qısa müddətdə məğlubiyyəti baş verə bilərdi. Lakin gördüyümüz və müşahidə etdiyimiz kimi, təkcə Çin, Hindistan, həmçinin, Hind-Çin regionuna məxsus bir sıra ölkələr, habelə Kuba, bir sıra Latın Amerikası və Afrikanın Rusiya ilə münasibətdə olan ölkələri, Orta Şərq dövlətlərinin böyük kəsiminin sanksiyalara qoşulmamaları Kremlin Ukraynaya qarşı apardığı hərbi əməliyyatlarına stumul verir.

Çox yəqin ki, əgər Ukrayna bundan sonra 10 il Rusiyaya qarşı müharibə aparacağını rahatlıqla bəyan edirsə, bu müddət Rusiya üçün çox azdır və Rusiyanın nəinki 10, hətta bu müddətdən daha çox zamanda müharibə etmək gücündə olduğunu deyə bilərik. Yəni müharibənin nəticəsinin kimin xeyrinə başa çatacağı deyil, müharibənin müddətinin uzanmasından hansı ölkənin ölümcül zərər görəcəyi sual verilə bilər. Hər iki halda bu ölkələr itirdiklərini geri qaytarmaq üçün çox qəyin ki, onilliklər sərf edə bilərlər.

Bütün bunlar hələ ki, Rusiyanın Ukrayna şəhərlərini atəş xətti altında saxlaması zamanı proqnozlaşdırılır və bu yaxınlarda Zelenskinin Moskvadakı, Sankt-Peterburqdakı, Rusiya ilə sərhədlərindəki hərbi-strateji obyektləri hədəfə ala biləcəkləri ilə bağlı bəyanatı vəziyyəti daha da qəlizləşdirir. O cümlədən, ortada minlərlə dinc əhali həyatlarını itirir, müharibənin acımasız, qəddar üzü ilə rastlaşmalı olur.

### Müharibənin yalnız regional deyil, dünyəvi iqtisadi, siyasi böhranlara səbəb olacağı da sirr deyil

Artıq get-gedə qəddarlıq amilinin sadə bir mənzərəyə çevrilməsi prosesi başlayıb və insan ölümünün bu qədər ucuzlaşması adi hal kimi qiymətləndirilir. Təəssüf ki, indi onminlərlə ölü, yaralı, qaçqın kütləsi mövcuddur və tərəflər birbirlərinə əsla güzəşt etməyəcəklərini də bildirirlər. Beləliklə, bu xəmirin hələ çox su aparacağı, üstəlik yalnız regionaldeyil, dünyəvi iqtisadi, siyasi böhranlara səbəb olacağı da sirr deyil.

Əbəs deyil ki, dünyada bahalaşma həddinin günü-gündən artması, o cümlədən, ərzaq məhsullarının üçüncü və s. ölkələrdə qıtlıq yaşatması bu müharibənin ağır təsirlərindən biridir. Bu baxımdan, müharibənin başa çatması üçün sadəcə bəşəri cəhdlər etmək vacibliyi artır, əlbəttə ki, bu da mümkün görünmür. Qərbin və Rusiyanın açıq müstəvidəki qarşıdurmalarından yalnız bir qalib çıxmalıdır və bu qalib üzə çıxana qədər yalnız Ukrayna deyil, bəşəriyyət itirəcək...

*Rövşən RƏSULOV*



ŞƏRH+AKTUAL

# "ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **I** | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 27304 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 47958 |
| **2** | **Qısamüddətli aktivlər** | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X | 12 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 3 |
| | Cəmi qısamüddətli aktivlər | | 15 |
| | CƏMİ AKTİVLƏR | | 47973 |
| | **KAPİTAL VƏ ÖHDƏlİKLƏR** | | |
| **3** | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (73311) |
| | Cəmi kapital | | 27404 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 20569 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 20569 |
| | **Cəmi öhdəliklər:** | | 20569 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 47973 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ TƏSƏRRÜFAT MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 8710 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 8710 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 6176 |
| 2. | DSMF-yə ayrım | 1355 |
| 3. | Vergi ödəmələri | 1062 |
| 4. | Amortizasiya xərcləri | 2188 |
| 5 | Sair xərclər | 2511 |
| | Cəmi xərc: | 13292 |
| | Əsas fəaliyyətin məticəsi -Ziyan | 4582 |
| | Ümumi nəticə -Mənfəət | 4582 |

"Şamaxı Sərnişin" ATSC-nin
idarə heyyətinin sədri: Nəhmətov M.Ə.

***Məlum olduğu kimi, uzun onillərdir ki, qlobal transkorporasiyalar dünyada təbii məhsulların sıradan çıxarılmasına, GMO məhsulların tətbiqinə çalışır, var gücləri ilə bu işi bütün ölkələrdə həyata keçirməyə cəhd edirlər. Lakin bir çox ölkələr öz ərzaq təhlükəsizliyini, qida təhlükəsizliyini qorumaqda israrlıdır və bununla bağlı işlər həyata çeirirlər. Azərbaycanın da belə bir potensialı var.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qida təhlükəsizliyi: Qlobal ərzaq böhranında Azərbaycanın qorunma potensialı



Azərbaycanda bu toxumların və məhsuların kütləvi gətirilməsi ötən əsrin 90-cı illərindən başlayıb. Ölkəmizdə geni dəyişdirilmiş məhsulların istehsalı, idxalı və satışı bir neçə qanunla qadağandır. Lakin buna baxmayaraq satışda belə məhsullara çox rast gəlinir. Çox sayda nüfuzlu alimlərin fikrincə, geni dəyişdirilmiş məhsullar insanlar və bütün canlı aləm üçün təhlükəlidir. Bu məhsullar insanın gen strukturunu və psixologiyasını dəyişir, onun immunitetini ağır vəziyyətə salır, onu öz təbii bioloji vəziyyətindən çıxarır və çox qorxunc xəstəliklərə səbəb olur. Xərçəng xəstəliyinin ən böyük səbəblərindən biri də geni dəyişdirilmiş ərzaq məhsullarıdır.

GMO özünü 2-ci nəsildə daha faciəvi şəkildə büruzə verir. Genetik strukturu pozulmuş yeni nəsillərin immuniteti zəif olur, xəstəliklərə, viruslara davamlılığa aşağı düşür. Heyvanlar üzərində aparılan təcrübələr də bunu göstərir.

Transgen məhsullar təkcə insanlar üçün yox, bütün canlılar, bütün təbiət üçün qorxunc təhlükədir. Belə ki, genetik tərkibi qarışdırılmış orqanizmlər torpaq fondunu məhv edir, onların əkildiyi torpaqlar təbii münbitliyini, faydalı mikroorqanizmləri itirir və sonra orada digər təbii məhsulların əkilməsi mümkün olmur. Heyvanlar da GMO yemlərdən qidalanaraq öz təbiiliyindən çıxır, xəstə bir yarımcan kütləyə çevrilir. Ən sadə misal kimi broyler toyuqlarını göstərmək kifayətdir. Təbii toyuqlarla onların fərqi göz qabağındadır. Biz onların ətini, yumurtasını yeyərkən də bu orqanizmləri qəbul etmiş oluruq. Üstəlik, güclü hormonal yemlərlə ildırım sürətilə böyüdülən bu toyuqlar insanın horman balansını dəyişir və bunun nəticəsi özünü çoxsaylı xəstəliklərdə aydın göstərir.

GMO texnologiyasının yarandığı və ilk tətbiq olunduğu ABŞ-da əhalinin sağlamlığının necə ağır vəziyyətə düşdüyü həmin ölkənin və BMT-nin statistikalarından aydın görünür. Ən pis xəstəliklər üzrə Amerika əhaliyə nisbətdə dünyada liderdir. Yalnız güclü və çox bahalı tibbi xidmətin sayəsində ağır faciənin qarşısını bir qədər ala bilirlər. Əksər amerikalılar həddən artıq şişmandır, əhalinin çoxu müxtəlif dərmanlar və antidepresantlarla yaşayır. GMO məhsulların genişç istifadə olunduğu digər ölkələrdə də eyni vəziyyətdir.

Bu məsələ həm də birbaşa milli təhlükəsizliyimizlə bağlıdır. Xalqımızın genefondunu məhv edə biləcək bu məhsullar təkcə fiziki yox həm də psixi xəstəliklərə yol açdığı məlumdur. İnsanın beynindəki hüceyrələr də qəbul etdiyi qidalarla formalaşır. Zaman keçdikcə çox sayda psixi xəstəliklər, psixoloji problemlər yaranır.

İndi isə probleme dövlət təhlükəsizliyi tərəfindən baxaq. Dövlətimiz üçün strateji təhlükə belədir-GMO toxumlar reproduksiya verməI



diyindən öz təbii toxumlarını məhv edərək GMO toxumların əkininə keçən ölkələr hər il Monsanto kimi qlobal korporasiyalardan toxum almaq məcburiyyətində qalır. Nəticədə həmin dövlət bir qlobal şirkətdən tam asılı vəziyyətə düşür, faktiki müstəmləkəyə çevrilir. Çünki bu toxumların sahibi bir növ o ölkənin aqrar sektorunun, ərzaq məhsullarının sahibidir, bu səbəbdən o şirkət həmin dövlətə qarşı istənilən tələbi irəli sürə bilər, buna razı olmayanda isə sadəcə toxum ixracını dayandırar və ölkənin kənd təsərrüfatını çökdürə bilər.

Bundan başqa, qida təhlükəsizliyi təmin edilməyəndə əhali arasında xəstəliklər kəskin artır, viruslara müqavimət azalır. Nəticədə dövlət ağlagəlməz məbləğlərdə zərərə düşür, səhiyyə xərcləri kəskin artır, əlillərin və ağır xəstələrin sayının artması sosial yükünü artırır, cəmiyyətdə işləmədən müavinət alanların sayı artır.

Xaricdən idarə olunan bəzi GMO təbliğatçıları GMO-nun daha çox məhsul veridyini və tamamilə bu əkinlərə keçilməsinə çağırırlar. Bu konkret olaraq yalandır. Rusiyada aparılmış elmi təcrübə sübit etdi ki, GMO qarğıdalı və günəbaxan toxumları ənənəvi təbii toxumlardan daha az məhsul verir və daha baha başa gəlir. Türkiyədə Qida Təhlükəsizliyi Hərəkatı tərəfindən aparılmış praktik elmi təcrübə göstərdi ki, təbii buğda toxumu GMO toxumdan 10 dəfə artıq məhsul verir. Üstəlik, təbii toxumdan fərlqi olaraq GMO toxumlara xüsusi qulluq göstərilməli və çox bahalı xüsusi dərmanlarla baxılmalıdır. Bəzi məhsullarda GMO toxumlar daha çox məhsul versə də, bu məhsulun bioloji dəyəri çox aşağıdır. Yəni 100 qram təbii məhsulda olan faydalı elementlər 1 kilo GMO məhsulda yoxdur. Nəticədə insanlar 1 kq təbii ərzaqdan ala biləcəyi faydalı maddələri qəbul etmək üçün 10 kq GMO məhsulu istifadə etməlidirlər. Məhz buna görə son dövrlərdə tibbdə yeni xəstəlikgizli qida aclığı sindromu yaranıb. İnsanlar dəfələrlə daha çox həcmdə qida qəbul etməyə başlayıb ki, bu da çoxsaylı xəstəliklərə səbəb olub.

GMO yaradıcıları və təbliğatçıları keçən əsrin ortalarında bu texnologiyanın bəşəriyyəti aclıqdan qurtarmaq üçün yaradıldığını və tətbiq olunduğunu deyirdilər. Lakin həmin vaxtlar dünyada maksimum 300 miyon ac var idi, hazırda isə bu say



850 milyon təşkil edir. Göründüyü kimi vəziyyət 3 dəfə daha ağırlaşıb.

Hazırda bəzi böyük dövlətlər və qlobal mərkəzlər yerli təbii toxum növlərini xüsusi yeraltı anbarlarda toplayır, qoruyur. Dünyaya isə durmadan GMO toxumlar ixrac edilir. Bu təhlükəni vaxtında görən ölkə prezidenti cənab İlham Əliyev hələ uzun illər qabaq toxumçuluq təsərrüfatlarının yaradılması, yerli toxum fondunun qorunması, artırılıb tətbiq olunması ilə bağlı sərəncam verdi. Bir neçə belə təsərrüfat da yaradıldı. Hazırda Elmlər Akademiyasının Genetika İnstitutunda yerli təbii toxumlarımız qorunur. Sadəcə onları çoxaltmaq və əkinçilərimizi təmin etmək lazımdır.

GMO-nun dünyada geniş yayılması kampaniyasını Ümumdünya Ticarət Təşkilatı və Monsanto başda olmaqla genetik modifikisasiya edilmiş məhsulların istehsalı, ixracı sahəsində ixtisaslaşmış qlobal transkorparasiyalar aparır, GMO-nun lobbiçiliyini edirlər. Onlar ölkələrdə hökumət və qeyri-hökumət təşkilatlarına, parlament üzvlərinə yol tapır, nəzarətlərindəki media ilə bunu təbliğ edir və sonra özlərinə lazım olan qərarın qəbuluna nail olurlar. Sonra isə həmin ölkələri özlərindən asılı vəziyyətə salırlar. GMO toxumu yayır əhalini zəhərləyir, sonra dərmanlarını satırlar. Fakt da budur ki, qlobal GMO korporasyalarının sahibləri, həm də dərman şirkətlərinin sahibləridir.

Dünyanın əksər ölkələrində buna qarşı dövlət və ictimai təşkilatlar səviyyəsində mübarizə aparılır, bir çox ölkələrdə GMO məhsullarının istehsalı, idxalı, satışı qadağan edilib. Əksər ölkələrdə buna qarşı ciddi ictimai müqavimət var.

Bizdə də dövlətimiz GMO məhsulları qadağan edən, yalnız ekoloji təmiz təbii məhsulların istehsalı, idxalı və satışına icazə verən bir neçə qanun qəbul edib. Ümumilikdə, GMO məhsullarla, təbii ərzaq məhsulları ilə bağlı ölkə rəhbərinin sərəncamları, qəbul olunmuş qanunlar çox müsbətdir. Lakin bəzi qlobal mərkəzlər bundan narahat olublar və ölkəmizdə bu qanunların dəyişdirilməsinə çalışırlar.

Biz isə cəmiyyət olaraq qida təhlükəsizliyi kimi ən vacib məsələyə etinasız yanaşırıq. Yalnız bir neçə ictimai təşkilat və jurnalist bununla bağlı maarifləndirmə işləri aparır.

Mən də əsas ixtisasım olan qida təhlükəsizliyi və ərzaq məhsullarının keyfiyyəti ilə bağlı olaraq 25 ilə yaxındır bu mövzularda davamlı araşdırma yazılar, verilişlər, mediada rəylərlə çıxış etmişəm, həyəcan təbili çalmışam. Bir neçə başqaları da var ki, (Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri Məhsəti Hüseynova, həmin təşkilatın texnoloq, qida mühəndisi Ağa Salamov, Azərbaycan-Türkiyə Qida Təhlükəsizliyi İctimai Birliyinin nümayəndəsi Asim Vəliyev və s.) illərdir ki, bu mövzularda həyəcan təbili çalırlar. Lakin, necə deyərlər, bir neçə güllə bahar olmaz, çünki bu kampaniyalara ictimai dəstək çox zəifdir. Bunu yaxşı bilən qlobal dairələr və onların maraqlarını ölkəmizdə müdafiə edən şəxslər GMO haqda mövcud qanunların dəyişməsinə, GMO-ya yaşıl işıq yandıran yeni qanunların qəbuluna çalışırlar.

Məsələ təkcə geni dəyişdirilmiş məhsullarla bağlı deyil, qidalara qatılan minlərlə ultrakimyəvi inqridiyentlər, saxta qida məmulatları insanları sağlamlığına zərbə vurur. Unutmayaq, insan orqanizmi yalnız qidadan, sudan formalaşır, əgər onlar təbii deyilsə, heç bir sağlamlıqdan, heç bir inkişafdan söhbət belə gedə bilməz.

Dövlətimiz də strateji planda ağır vəziyyətə düşə bilər. Məlum olduğu kimi, dövlətin qüdrəti, onun iqtisadi müstəqilliyi ilə birbaşa bağlıdır. GMO yönümlü kənd təsərrüfatı və yeyinti sənayesi isə həmin dövlətin iqtisadiyyatının əhəmiyyətli və ən vacib hissəsini hansısa xarici mərkəzə bağlayır.

Azərbaycan təbiəti, vətənimizin yeraltı və yerüstü resursları bizim özümüzü təbii məhsullarla təmin etməyimiz üçün yetərli imkanlara malikdir. Bu potensialdan səmərəli istifadə etməklə, sağlam cəmiyyət, güclü dövlət yarada bilərik. Bunun üçün aqrar sektora diqqəti artırmalı, yerli toxumlarımızı artırıb əkinçilərimizi təmin etməliyik. Bu halda ərzaq və qida təhlükəsizliyimiz qorunmuş olar, heç vaxt xarici ölkələrdən asılılığımız olmaz.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
21 aprel
2022-ci il

# Boksçumuz finalda!



*Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa birinciliyində yarımfinal döyüşlərinə start verilib. Qol.az xəbər verir ki, finala gedən yolda Azərbaycan millisinin heyətində ringə ilk olaraq Kənan Babayev çıxıb.*

Əvvəlki mərhələlərdə türkiyəli Telet Yağlı və gürcüstanlı Oruc Əhmədova qalib gələn ölkə çempionu yarımfinalda irlandiyalı Tedi Coysla qarşılaşıb. 48 kq çəki dərəcəsində keçirilən döyüş Babayevin qələbəsi ilə yekunlaşıb. O, rəqibini 5:0 (28:27, 28:27, 29:26, 28:27, 28:27) hesabı ilə məğlub edərək finala vəsiqə qazanıb. Bununla da Azərbaycan yığması 3 illik fasilədən sonra analoji yarışın həlledici görüşündə təmsil olunacaq. Qeyd edək ki, Kənan bu gün keçiriləcək çempionluq döyüşündə polşalı Nikolas Marsel Pavliklə qarşılaşacaq.

# 15 yaşlı gənc anasını niyə öldürüb?- səbəbi açıqlandı



Aprelin 20-si saat 12:00 radələrində paytaxtın Nizami rayonu ərazisində 1985-ci il təvəllüdlü Sevinc Məhərrəmovanın aldığı xəsarətlərdən ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur.

Nizami Rayon Prokurorluğundan SİA-ya bildirilib ki, aparılmış ilkin araşdırmalarla zərərçəkmişin oğlu 2007-ci il təvəllüdlü A.C-nin qısqanclıq zəminində anası Sevinc Məhərrəmovaya bıçaq xəsarətləri yetirərək qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Nizami rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır. A.C şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Mark Eliyahu Bakıya gəlir



**Məşhur kamança ustası Mark Eliyahu yenidən Bakıya gəlir. SİA xəbər verir ki, Markın konserti Heydər Əliyev Sarayında baş tutacaq. Sənətçinin "About Love" adlı turnesi çərçivəsində baş tutacaq konsert 19 iyunda keçiriləcək. Konsert üçün biletlərin qiyməti isə 40-220 manat arasında olacaq. Xatırladaq ki, 1982-ci ildə Dağıstanda doğulan israilli kaman ifaçısı Azərbaycana gələrək Əməkdar artist, kamança ustası Ədalət Vəzirovdan dərs alıb.**

*Ləman Əlizadə*

# 15 yaşlı futbolçu "Fənərbaxça"nın tarixinə düşdü



*"Fənərbaxça"nın Ukraynanın "Şaxtyor" klubu ilə xeyriyyə matçı (1:0) komandanın futbolçusu İsak Vural üçün əlamətdar olub.*

Belə ki, yarımmüdafiəçi "Fənərbaxça"nın tarixi ərzində əsas komandanın heyətində meydana çıxan ən gənc oyunçu olub. O, 15 yaş 10 ay 23 günlüyündə bunu bacarıb. Qeyd edək ki, "Fənərbaxça" İsak Vuralı Portuqaliyanın "Benfika" klubundan transfer edib.

# Omeqa 3-ün dəri üçün faydaları



***Omeqa-3 adlanan yağ turşularının orqanizm üçün inanılmaz faydaları var. Əslində bu yağların orqanizmdə olmaması insanlarda bir çox şikayətlərə səbəb ola bilər. Son zamanlar geniş istifadə olunan omeqa-3 balıq yağının orqanizmimizin istehsal edə biləcəyi bir yağ olmadığı üçün mütləq əlavə olaraq qəbul etmək lazımdır. Çoxsaylı vitamin və mineralları ehtiva edən omeqa- 3 dəri üçün çox faydalıdır.***

Tibbi saytlarında yer alan məlumatlarda deyilir ki, dərinin cavanlaşmasını və hamar görünüşünü dəstəkləyən omega-3 hər yaş kateqoriyaları üçün də uyğundur. Omeqa-3-ün dəri üçün faydaları arasında ən vacibləri aşağıdakılardır: dərini yumşaldır, parlaq görünməsini təmin edir; dəriyə canlılıq verir, cavanlaşmasına kömək edir; qaşıntıları aradan qaldırır, ləkələri azaldır; tıxanmış məsamələri açır; yaşla əlaqədar üzdə yaranan qırışları və çizgiləri yox edir; sızanaqlara eyni zamanda dərinin səthində infeksiya və iltihaba qarşı qalxan rolunu oynayır; günəşin mənfi təsirlərinə qarşı dərini gücləndirdiyi üçün günəşdən gələn zərərləri minimuma endirir; dəri xərçənginə qarşı qoruyucu təsir göstərir; dərinin qurumasının və soyulmasının qarşısını alır.

## ELAN

**İsmayılov Tərlan Aslan oğlunun adına verilmiş 55 BA 065 qeydiyyat nömrəli SDLG 953N markalı Frontal yükləyici nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**